47_27 IYUl-QARA.qxd 12/11/2025 9:31 PM Page 1

UNİKAL

№47 (2277) 12 dekabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Monopolistlərin yeni oyunu:

## Bazarların bağlanmasında gizli əl?!



Səh.8

## Bu gün ümummilli lider Heydər Əliyevin anım günüdür

*Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür. "Unikal" xatırladır ki, Heydər Əliyevin vəfat etməsindən 22 il ötür. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində, dəmiryolçu ailəsində dünyaya gəlib. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alıb. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməyib. Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə xidmət edib, 1944-cü ilin mayında isə Naxçıvan...*

Səh.3

## Samir Nuriyev hökumət üzvlərinə tapşırıqlar verdi



*Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dekabrın 11-də növbəti iclası keçirilib. "Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev...*

Səh.2

## Azərbaycanda siqaretin qiyməti bahalaşacaq



*Azərbaycanda tütün məmulatları üzrə aksiz vergiləri artırılır. Milli Məclisin dekabrın 9-da keçirilən plenar iclasında Vergi Məcəlləsinə dəyişikliklərin müzakirəsi zamanı komitə sədri Azər Əmiraslanov bildirib ki, tütündən hazırlanan siqaretə alternativ olan digər tütün məmulatları üzrə aksiz vergilərinin...*

Səh.9

## "Bu, indiyə qədər Əmək Məcəlləsinə edilən ən böyük və əsaslı dəyişiklikdir"



*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev "Unikal"a müsahibə verib. O, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, uşağın doğulması ilə əlaqədar kişilərə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsindən, vəfat edən şəxsin sığorta məbləğinin...*

Səh.4

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:17 PM Page 2



# "Düz deyir, oxumağım biabırçılıqdır" - Fatimədən Hüseynə cavab



***Rəqqasə Fatimə Fətəliyeva klarnet ifaçısı Hüseyn Məhəmmədoğlunun onun haqqında dediyi ”Azərbaycan incəsənətini məhv etmək istəyəndir. Bizə düşməndir” sözlərinə cavab verib.***

Axşam.az-a açıqlama verən sənətçi Hüseyni haqlı bilib. O qeyd edib ki, həqiqətəndə öz ifası biabırçılıqdır: ”Hüseynə zəng etdim ki, mən müğənni deyiləm, rəqs sənətindəyəm. Verilişlərdə də demişəm ki, bilirəm səsim yoxdur. Boynuma alıram ki, oxuya bilmirəm. Məndən inciməsinlər, Afaqı öpürəm. Amma elə məqam yaradırlar ki, mənim mahnım gedəndə qonaq bilmir kimdir. Ayan da, Hüseyn də tanımadı. Sual verdilər ki, necə oxumaqdır? Mən də elə ifa eşitsəm, deyərəm bərbaddır, biabırçılıqdır. Orada ”Ay ürəyim, oğlum” mahnımı verərdilər. Hər yerdə yüksək səviyyədə də alqışlanır. Hüseyn sənətkardır, musiqiçidir, ürəyi musiqi ilə döyünən biridir. Heç nə demirəm, düz deyir. Sadəcə, soruşdum ki, niyə haqqımda belə dedin? Cavab verdi ki, bilmədim sənsən. Mahnını pisləyib, Fatiməni yox. Musiqinin bu halda olmağı çoxlarını sarsıdır. Hüseyn yaxşı danışmadı ki, düşməndilər. Bu gün musiqini sənətkarlar yaxşı mahnılarla çatdırmalıdırlar. Oxuduğum mahnı bərbatdır, nə deyim? Ona klip çəkdim, amma heç yerdə oxumuram. Mənə yaraşmadı. ”Oğlum” mahnısı mənə yaraşır, onu qoysaydılar, yaxşı olardı. Pis söz deyilməzdi”.

# “Zorakılığa məruz qalan qadınlar” - Nura Suridən etiraz

***”Gülsərən Budayıcıoğlunun kitablarını oxumuşam və onun əsərləri əsasında çəkilən “Kırmızı oda”, “Masumlar apartmanı” və “Kral kaybederse” mənim ən sevdiyim seriallardandır. Həmişə də ətrafımdakılara bu seriallara baxmağı tövsiyə etmişəm, çünki orada insanın daxili dünyası, keçmişdən qalan yaraları və sağalma prosesi çox real təsvir olunur. Həmişə istəmişəm ki, bizdə də belə seriallar, filmlər çəkilsin”.***



Bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. İfaçı Azərbaycanda maraqlı ssenari olacaq kitablar yazılmamasından şikayətlənib: ”Bəzən düşünürəm ki, niyə bizdə Gülsəren Budayıcıoğlu kimi psixiatrist-yazar yoxdur? Niyə bizim insanlarımız yaşadıqları travmanı başqasına açıq şəkildə danışmaqdan çəkinirlər? Hətta ən yaxınlarına belə başlarına gələn ağır hadisələri deyə bilmirlər. Travmalarını görməzdən gəlirlər, utanırlar, içlərində dərin bir yerdə gizlədirlər.

Bu yaxınlarda Kəmalə Ağazadənin sığınacağında oldum. Orada gördüyüm uşaqların hər birinin taleyindən kitab yazıb, filmlər çəkmək olar. Zorakılığa məruz qalan, diqqətsizlik və sevgisizlik içində böyüyən uşaqlar var orada.

Bu mövzuda Emil Quliyevin “Tillov” serialı alqışa layiqdir. Sığınacaqdakı uşaqların taleyi ilə oxşarlıq çoxdur. Serial mənə çox təsir etdi. Kaş ki, bizdə də bu cür real həyat hekayələrinə toxunan, sosial məzmunlu seriallar çox olsun.

Arzularım çoxdur... İstəyirəm ki, bizim insanlarımız bir-birinə güvənsin. Zorakılığa məruz qalanlar qınaqla deyil, dəstəklə qarşılaşsınlar. Utanmasınlar, öz ağrılarını içlərində basdırmasınlar. Bizdə də Gülseren Budayıcıoğlu kimi psixiatr-yazarlar yetişsin, bu mövzulara daha çox diqqət ayrılsın. İnsanlar bir-birinə dayaq olmağı bacarsınlar. Zorakılığa məruz qalan qadınlar heç vaxt günahkar kimi göstərilməsin, əksinə, hər zaman anlayış, qayğı və dəstək görsünlər”.



# "Namizədim var, ailə quracağam" - Pərvin Abıyeva

***Aktrisa Pərvin Abıyeva açıqlaması ilə diqqət çəkib.***

Aktrisa canlı yayımda şəxsi həyatı ilə bağlı sualları cavablandırıb. Pərvin ailə qurmağa hazırlaşdığını deyib: Namizədim var... İnanmazsınız, amma var. Deyəsən, toy olacaq”.

Aktrisa həyatında olan bəylərlə nişanlandığını etiraf edib: ”Ömrüm nişanlı ola-ola keçib. Hər gələn evlənmək adıyla nişanlanıb, sonra gedib. Hamısı ilə nişanlı olmuşam. Hamısından üzüyüm var. Bundan sonrakına deyəcəyəm mənə üzük vermə, düşmür”.

# Müğənni "Seabreez"də yarım milyonluq ev aldı

***Müğənni Ülviyyə Namazova etirafı ilə təəccübləndirib.***



O, qonaq olduğu ”Rəngarəng” verilişində dəbdəbəli evini olduğunu açıqlayıb: ”Evimi kreditlə almışam. Allah olmayanalara qismət etsin. Mənzilim 2 otaqlıdır. Aylıq 350 dollar ödəyirəm. 2 il müddətində kreditini verəcəyəm”.

Aparıcı Zaur Nəbioğlu isə ifaçının ”Seabreez”də aldığı yeni evinin qiymətinin yarım milyon olduğunu bildirib. O, həmçinin qazandığı pulların əksər hissəsinin isə oxuduğu, hazırda münasibətlərinin olmadığı İsrail Məmmədovun ”Qoşa çinarlar” mahnısı sayəsində deyərək sənətçiyə etirafını xatırladıb.

# "4 il sonra bizə də qismət oldu" - Nadir ağladı

***Xəbər verdiyimiz kimi, müğənni Nadir Qafarzadə baba olub.***



Sənətçi ”Qonaqcanlı” verilişinə telefonla zəng edib. Nəvəsindən danışan Qafarzadə göz yaşlarını saxlaya bilməyib: ”Uşağı göstəriblər, şirindir. Kövrəlmişəm (ağlayır). 4 ildən sonra bizə də bu sevinci yaşamaq qismət oldu. Bağışlayın, məni qəhər bürüyüb, danışa bilmirəm”.

Qeyd edək ki, Nadirin oğlu Loğmanın oğlu dünyaya gəlib.

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:17 PM Page 3





## AQTA bu bazarda nöqsanlar aşkarlamışdı - Aradan qaldırıldı

***Qida Təhlükəsizliyi Agentliyinin plandankənar nəzarət tədbirləri zamanı "8 km" bazarı kimi tanınan ərazidə fəaliyyət göstərən "Nəzrin-E" MMC-yə məxsus bazarda aşkar edilən diri quşların satışı və qanunsuz kəsimi, süd və süd məhsullarının, müxtəlif növ turşuların və diri balıqların açıq şəraitdə, soyuducu avadanlıqlar olmadan və baytarlıq-sanitariya ekspertizasından keçirilmədən satışa təqdim edilməsi və digər faktlar sahibkar tərəfindən aradan qaldırılıb.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, qida subyekti tərəfindən obyektdə aşkar olunan nöqsanlar əsasında tələb olunan tədbirlər icra olunaraq fəaliyyəti sağlamlaşdırılıb.

Belə ki, bazarda qanunsuz quş kəsimi ləğv edilib və dezinfeksiya işləri aparılıb, süd məhsullarının soyuducu vitrinlərdə saxlanılması və markalanması təmin olunub, satış piştaxtaları gigiyenik materiallardan təşkil edilib, işçilər dövri tibbi müayinədən keçib.

Bildiririk ki, ərzaq bazarlarında aparılan monitorinqlərin əsas məqsədi istehlakçı hüquqlarının qorunması, əhalinin təhlükəsiz qida məhsulları ilə təmin edilməsi, eləcə də bazarlardakı nöqsanların aradan qaldırılması və onların sağlamlaşdırılmasıdır.

## "Azərişıq" Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir

***Prezident İlham Əliyevin tapşırıqlarına əsasən "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (ASC) ölkənin bütün regionlarında, eləcə də Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma, əsaslı təmir-bərpa işlərini davam etdirir. Görülən işlər çərçivəsində Kəlbəcərin də elektrik şəbəkəsi yenidən qurulur.***

"Unikal" xəbər verir ki, bu barədə "Azərişıq" ASC məlumat yayıb.

Bildirilib ki, rayonun ən ucqar dağ kəndlərinə 35 kV-luq izolyasiyalı hava xətləri çəkilir, yeni güc mərkəzləri yaradılır.

Alagöllər, Zəylik və Zod kəndlərində yerləşən strateji obyektlərə və "İstisu" mineral su zavoduna 35 kV-luq ikidövrəli özünüdaşıyan izolyasiyalı naqillər çəkilib, transformator məntəqələri quraşdırılıb. Yanşaq və Zallar kəndlərinə də 35 kV-luq xətlərin çəkilişi başa çatıb.

Şəhər ərazisində 110/35 kV-luq yarımstansiyanın tikintisi davam edir. 35/0.4 kV-luq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzində isə işlər yekunlaşıb. Kəlbəcərə köç edən ailələrin dayanıqlı elektrik enerjisi ilə təmin olunması üçün 0.4 kV-luq elektrik şəbəkəsi yenidən qurulub.

Qeyd edək ki, "Azərişıq" ASC tərəfindən ölkənin digər regionlarındakı bir sıra kənd və qəsəbələrdə istismar müddətini başa vurmuş elektrik təsərrüfatı yenidən qurulur. Məqsəd vətəndaşların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsidir.

# Monopolistlərin gizli oyunu

## Bakıda bazarların yoxa çıxmasında onların barmağı varmı? - İlginc iddialar

***Son vaxtlar paytaxt Bakıda ənənəvi bazarların bir-birinin ardınca bağlandığı barədə xəbərlər gəlir. Və belə xəbərlər təbii olaraq ki, sadə vətəndaşlarda müəyyən narahatlıqlara yol açır.***

"Unikal"ın növbəti araşdırması məhz bu mövzuya həsr olunub.

### Ənənəvi bazarlar niyə vacibdir?

Əslində, bu suala hər kəs özözlüyündə rahatca cavab tapa bilər. Lakin biz yenə də məsələyə geniş aspektdə aydınlıq gətirmək istərdik.

İş orasındadır ki, ənənəvi bazar demək:

- aşağı qiymətlər və təbii rəqabət deməkdir; ən azından ona görə ki, sərbəst satış, alıcı-satıcı bolluğu və gündəlik dəyişən təklif bazarlarda qiymətləri sabit saxlayan ən mühüm mexanizmdir.



- yüksək keyfiyyətli və təzə məhsul deməkdir; yenə ən azından ona görə ki, xüsusilə kənd təsərrüfatı məhsulları birbaşa istehsalçıdan gəldiyi üçün təzəliyini qoruyur. Şəbəkə mağazalarındakı uzun logistika zənciri burada yoxdur.
- yerli iqtisadiyyatın canlı, dinamik qalaması deməkdir; çünki bazar həm kəndlinin, həm şəhərlinin, üstəlik, kiçik və orta sahibkarın mühüm qazanc yerlərindən biridir.
- sosial əlaqələrin qorunması deməkdir, ona görə ki, Azərbaycan kimi ənənəyə bağlı toplumlarda bazar sadəcə alış-veriş yeri deyil, insanların ünsiyyət qurduğu, həyat ritmini dinamik yaşadığı bir məkandır.
- iş yeri deməkdir; kəndlinin çalışması, şəhərlinin məşğuliyyəti baxımından önəmlidir.

Bunlar ənənəvi bazarların əhəmiyyətini artıran məqamlardan sadəcə bir neçəsidir. Və yalnız yuxarıda sadalanan məqamlar bazarları qoruyub saxlamağın vacibliyini aydın şəkildə ortaya qoyur. Biz isə əksini müşahidə edirik: onların sayı azalır və belə getsə, bir azdan paytaxtda bazar tapmaq Marsda həyat əlamətləri tapmaqdan daha müşkül olacaq.

### Bazarların bağlanmasında gizli əl?!

"Bazarların bağlanması, ilk növbədə, supermarketlərin hazırkı inhisarçı mövqeyini möhkəmləndirəcək" - bunu təzəlikcə iqtisadçı Akif Nəsirli "Yeni Sabah"a açıqlamasında deyib. O, paytaxtda mövcud bazarların tezliklə tamamən ləğv ediləcəyi iddiasının dolaşdığına diqqət çəkərək bildirib ki, Bakı şəhərində yerləşən bazarlar əhali üçün daha əlçatan və alternativ yaradan yeganə obyektlərdir: "Onların bağlanması tamamilə yanlış yoldur. Bu, Azərbaycan iqtisadiyyatı kimi tamamilə inhisarlaşmış iqtisadiyyatın daha bir seqmentində vəziyyəti kəskinləşdirərdi. Fermerlər heç olmasa vasitəçilər sayəsində bazara çıxış imkanı qazanırlar. Müştərinin seçim imkanlarını məhdudlaşdırmaq bazar iqtisadiyyatının təməl prinsiplərinə dabandabana ziddir".

Bununla belə, ekspert vurğulayıb ki, bazarlarda qayda-qanunu yaratmaq vacibdir: "Bazar iqtisadiyyatının iki əsas prinsipi var: liberal qiymət və azad rəqabət. Bu ikisi bir-birini tarazlayır. Əgər rəqabət kəskindirsə, sən qiyməti qaldıranda bazar səni kənara atacaq. Ona görə də nə qədər çox alternativ olarsa, bir o qədər yaxşıdır. Amma Bakı bazarlarında antisanitariyanın aradan qalxması, məhsulların girişinin səliqəli formada həyata keçirilməsi mühüm şərtdir. Əhali qida məhsulları alır, niyə kimsə oradan zərər çəkməlidir?! Bazarlarda qayda-qanun vacibdir, lakin bazarların fəaliyyətini davam etdirmək ondan da vacibdir".

İqtisadçı qeyd edib ki, fermerlərə bazara birbaşa giriş imkanı yaradılmalıdır: "Yəni fermer birbaşa bazara girib, orada məhsul satmaq imkanına malik olsun. Nə qədər ki, bunu təmin edə bilməmişik, daimi paytaxta kənd təsərrüfatı məhsullarının axınını təmin edə bilməyəcəyik. Paytaxt və regionlar arasında məhsul qiymətlərindəki fərqi aradan qaldırmaq çətinləşəcək".

Bir müddət əvvəl kənd təsərrüfatı üzrə ekspert Şahin Nəcəfov da bildirmişdi ki, bazarların bağlanması çox böyük problemlərin yaranmasına gətirib çıxaracaq: "Kənd təsərrüfatını analiz etsək, iki hissəyə bölməliyik: oliqarxlara məxsus böyük təsərrüfatlar və kiçik ailə təsərrüfatları. Çox təəssüf ki, son illər aparılan siyasət kiçik ailə təsərrüfatlarının məhv olmasına hesablanıb... Bazarların bağlanması olduqca mənfi tendensiyadır. Çünki hazırda kiçik ailə təsərrüfatlarının yeganə çıxış imkanları bazarlardır. Problem odur ki, həmin təsərrüfatların marketlərə, böyük ticarət mərkəzlərinə çıxışı mümkün deyil... Böyük marketlərə çıxmaq ancaq böyük təsərrüfatlara məxsusdur... Biz Şərq ölkəsiyik. Azərbaycanda müəyyən bir bazar mədəniyyəti var. Bu bizə dədə-babadan qalıb. Avropada yoxdur deyə, bu mədəniyyəti məhv etmək yanlış bir addımdır. Bütün bunların hamısı kiçik ailə təsərrüfatlarına böyük zərbədir". Ekspert ənənəvi bazarların bağlanmas nəticəsində yoxsulluğun artacağına da diqqət çəkmişdi: "Kiçik bazarların bağlanması ona gətirib çıxaracaq ki, kəndlər sürətlə boşalacaq. Onsuz da kəndli yayda əkinçi, qışda isə dilənçidir. Əkib-becərdiyi məhsulu zorla ortaya çıxarır. Bir yandan da bazarların bağlanması həmin təsərrüfatların sıradan çıxmasına şərait yaradacaq... ABŞ və Avropanın bəzi ölkələrində kənd təsərrüfatı ilə məşğul olan əhali tutumu deyək ki, 2,5-3 faiz təşkil edir. Azərbaycanda isə bu nisbət 40 faizdən çoxdur. Ona görə də əgər belə davam edərsə, kəndlilərin hamısı paytaxt Bakıya üz tutacaq, yoxsulluq daha da artacaq".

Yeri gəlmişkən, bazarların sıradan çıxarılmasında "gizli bir əlin" olduğuna inananlar kifayət qədər çoxdur. Onlar bu məsələdə iri supermarket şəbəkələrinin sahiblərindən tutmuş idxalçı monopolistlərin maraqlı tərəf olduğu düşüncəsindədirlər. Elə bəzi iqtisadçılar da eyni qənaəti xeyli dərəcədə bölüşürlər.

### Ənənəvi bazarların bağlanması hansı fəsadlara yol aça bilər?

Mütəxəssislər ənənəvi bazarların bağlanmasının bir sıra zərərlərinə diqqət çəkirlər. Birincisi, bu, kiçik, bəzi hallarda hətta orta sahibkarlığın tamamilə sıxışdırılması kimi qiymətləndirilir. Hesab edilir ki, ənənəvi bazarlar əsasən xırda ticarətçilərin başlıca dayaqlarından biridir. Onların bağlanması minlərlə insanın ucuz icarə və özünəməşğulluq imkanlarından məhrum olması deməkdir.

Digər tərəfdən, ənənəvi bazarların ləğvi qiymətlərin artması və rəqabətin azalması kimi fəsadlara yol aça bilər. Bazarlar təklifin çoxluğu ilə qiymətləri aşağı salan mühüm amildir. Seçim azalanda iri market şəbəkələri qiyməti daha rahat şəkildə diktə etmək imkanı qazanır. Bu isə ilk növbədə istehlakçı üçün əlavə və ağır yük deməkdir.

Şəhərlərdəki ənənəvi bazarların yoxa çıxması kənd təsərrüfatının inkişafına da ciddi zərbə vurmaq iqtidarındadır. Çünki bu sahədə çalışan insanlar üçün bazara çıxış çətinləşə, öz məhsulunu istehlakçıya təklif etmək imkanı darala, nəticədə kəndli istehsaldan uzaqlaşa bilər. Beləcə, işsizlik probleminin də böyümə riski doğur.

Göründüyü kimi, ənənəvi bazarların ard-arda bağlanması həm xalq ticarətinin, həm ümumilikdə iqtisadi dinamikanın zəifləməsinə, həm də sosial münasibətlərin sarsılmasına gətirib çıxarardı. Bu isə perspektivdə istər yerli istehsalçını, istərsə istehlakçını, onların arasında vasitəçi rolunu yerinə yetirən saysız-hesabsız satıcını çətin vəziyyətdə qoyardı. Bir sözlə, hər bir halda itirən sadə vətəndaş, qazanan isə iqtisadiyyat üzərində hegemonluğunu itirən monopolist ünsürlər olardı.

***Toğrul Əliyev***

47_27 IYUI-QARA.qxd 12/11/2025 9:20 PM Page 4



# Xankəndidə terror törədən erməninin məhkəməsi başladı

***Xankəndidə terrorçuluq və digər xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən Karen Avanesyanın barəsində cinayət işi üzrə ilkin məhkəmə baxış prosesi keçirilir.***

"Unikal" xəbər verir ki, Gəncə Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesə hakim Natiq Əliyev sədrlik edir. Prosesdə təqsirləndirilən şəxsin ankent məlummatları dəqiqləşdirilib, ittiham aktı oxunub.

Qeyd edək ki cari il sentyabrın 14-də Azərbaycan Respublikasının Xankəndi şəhəri ərazisində odlu silah və döyüş sursatlarından atəş açılmaqla partlayışla nəticələnən terrorçuluq edilməsi, habelə terrorçuluqla əlaqədar ikidən çox polis əməkdaşının qəsdən öldürülməsinə cəhd edilməsi və digər faktlar üzrə Baş Prokurorluğun İstintaq idarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb. İstintaq tədbirlərilə, Xankəndi şəhərinin ermənəsilli sakini, 1967-ci il təvəllüdlü Karen Avanesyanın bir sıra xüsusilə ağır cinayətlər törətməsinə əsaslı şübhələr müəyyən edilib.



Belə ki, K.Avanesyan ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq məqsədilə, partlayışların törədilməsi, insanların öldürülməsi və digər ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan terrorçuluq əməli, habelə terrorçuluqla əlaqədar qəsdən adam öldürmə cinayətlərini törətmək məqsədilə Xankəndi şəhərinin ərazisində 2023-cü ilin sentyabr ayına kimi fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrdən qalmış odlu silah - "AKMS" markalı avtomat silahı, onun komplekt hissələrini, habelə çox sayda əl qumbaralarını əldə edib həmin şəhərin ərazisində gizlədərək uzun müddət saxlayıb, cinayətkar niyyətini həyata keçirmək üçün sentyabrın 14-də saat 07 radələrində yaşadığı sosial sığınacağı hər hansı bir səbəb bildirmədən tərk edib gizlətdiyi silah-sursatları götürərək atəşə hazır vəziyyətə gətirib, saat 09 radələrində yaşayış olmayan başqa bir evə girib mövqe tutmaqla polis əməkdaşlarının yaxınlaşmasını gözləyib, onun olduğu yeri müəyyənləşdirməyə çalışan polis əməkdaşlarının sayının çoxluğunu müşahidə etdikdən sonra qabaqcadan planlaşdırdığı terrorçuluq və çoxsaylı hakimiyyət nümayəndələrini öldürmək üçün şəraitin yetişdiyi qənaətinə gələrək gizləndiyi yerdən avtomat silahdan ona yaxınlaşan polis əməkdaşlarına nizamsız çoxsaylı atəşlər açıb, ardınca isə əl qumbaralarını polis əməkdaşlarının olduqları yerə ataraq partladıb.

Nəticədə 3 nəfər polis əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri almış, hadisə yerindən təxliyyə edilərək zəruri tibbi yardımlar gösətirildiyindən həyatlarını xilas etmək mümkün olub.

Bundan başqa, qanunvericiliyin tələblərinə və edilən dəfələrlə xəbərdarlıqlara baxmayaraq, Karen Avanesyan hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmaqdan boyun qaçırdığı üçün polis əməkdaşları tərəfindən odlu silah tətbiq olunmaqla saxlanılıb, ardınca isə zəruri tibbi yardımlar göstərilməklə xəstəxanada müalicə edilib.

Cinayət işi üzrə toplanmış sübutlar əsasında Karen Avanesyan Cinayət Məcəlləsinin 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11 (xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar ümumi təhlükəli üsulla iki və daha çox şəxsi terrorçuluqla əlaqədar qəsdən öldürməyə cəhd qəsdən adam öldürməyə cəhd), (qəsdən adam öldürməyə cəhd), 214.2.3 (odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə terrorçuluq törədildikdə), 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını əldə etmə, saxlama və daşıma) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub.

Karen Avanesyan barəsində ibtidai istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Xankəndi şəhər məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Tural Əhmədov***

# Azərbaycanda siqaretin qiyməti bahalaşacaq

***Azərbaycanda tütün məmulatları üzrə aksiz vergiləri artırılır. Milli Məclisin dekabrın 9-da keçirilən plenar iclasında Vergi Məcəlləsinə dəyişikliklərin müzakirəsi zamanı komitə sədri Azər Əmiraslanov bildirib ki, tütündən hazırlanan siqaretə alternativ olan digər tütün məmulatları üzrə aksiz vergilərinin artırılmasına dair təkliflər hazırlanıb.***

"Belə ki, yerli istehsalı əsaslanan və idxal olunan ənənəvi siqaretlər üzrə aksiz dərəcələrinin artırılması tamamilə idxaldan asılı olan və kifayət qədər də aşağı aksiz dərəcəsinə malik bir sıra alternativ tütün məmulatlarının istifadəsinin çoxalmasına və minimal qiymətlər səbəbindən onların bazar payının kəskin artması, çoxalmasına gətirib çıxara bilər. Bu baxımdan, tütün məmulatları bazarının həmin seqmenti üzrə aksiz dərəcələrinə yenidən baxılması zərurəti yaranıb. Birincisi, bura alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş, tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar daxildir.



Bu məhsullar üzrə aksizin min ədədə görə yerli istehsal və idxalda 16 manatdan 25,5 manata qaldırılması təklif olunur. İkincisi, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər homogenləşdirilmiş və ya bərpa edilmiş, çeynəlilən və ya buruna çəkilən tütünlərdir. Bu məhsullar üzrə aksizin hər kiloqrama görə yerli istehsalda 22 manatdan 162 manata, idxalda isə 30 manatdan 170 manata qaldırılması təklif olunur".

Bəs görəsən, aksiz dərəcələrinin artırılması siqaretlərin və ya elektron siqaretin qiymətinə necə təsir edəcək?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a açıqlamasında bildirib ki, aksiz dərəcələrinin artırılmasının həm siqaret, həm də elektron siqaretlərin xərcinə təsir edəcəyi gözlənilir.

Onun sözlərinə görə, nəticə etibarı ilə aksiz dərəcəsi artırsa, bu, həmin məhsul üzrə daha çox vəsaitin ödənilməsinə və xərcin artmasına gətirib çıxarır:

"Gözlənilir ki, aksiz dərəcəsi artırılan siqaret və elektron siqaretlərin qiymətlərində artımlar olacaq. Onların xərcinin artması səbəbindən qiymət artımlarının olacağı gözlənilər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyəsi ondan ibarətdir ki, siqaret və elektron siqaretlərə əlçatanlığın azaldılması həyata keçirilsin. Bu insan sağlamlığına ziyan olduğu üçün Ümumdünya Səhiyyə Təşkilatı bu məhsullardan az istifadəni və istifadə etməməyi tövsiyə edir. Bütün hallarda xərcin artması həmin məhsulların qiymətlərində artımlarla müşahidə oluncaq", - deyə deputat vurğulayıb.

***Anar Kəlbiyev***



## Özəl məhkəmə ekspertizası institutunun tətbiqinə başlanılacaq

***Özəl məhkəmə ekspertizası institutunun tətbiqinə başlanılacaq.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026 - 2030-cu illər üçün Konsepsiya"sında əksini tapıb.

Sərəncama əsasən, Ədliyyə Nazirliyi, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi 2026-cı ildə özəl məhkəmə ekspertlərinin fəaliyyətə başlaması, özəl məhkəmə ekspertizası institutunun səmərəli fəaliyyəti nəticəsində məhkəmə ekspertizası sahəsində alternativliyin təmin edilməsini təmin etməlidir.

2028-2030-cu illərdə özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin genişləndirilməsinə dair təkliflər hazırlanacaq. Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi Ali Məhkəmə, Baş Prokurorluq, Vəkillər Kollegiyası ilə birgə özəl məhkəmə ekspertizası institutunun fəaliyyət dairəsinin genişləndirilməsi, bununla da məhkəmə ekspertizası xidmətlərinə əlçatanlığın artması, rəqabətli mühit şəraitində ekspertiza sahəsinin inkişafına nail olunmasını təmin etməlidir.

## Dövlət Agentliyi ASK ilə əməkdaşlıq Memorandumu imzalayıb

***Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə Əməkdaşlıq Memorandumu imzalayıb.***




"Unikal" bu barədə Dövlət Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, sənədi qurumun sədri Elnur Bağırov və ASK-nin prezidenti Məmməd Musayev imzalayıblar.

Memorandumun məqsədi ölkədə sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin formalaşdırılması, təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi, istehlakçı hüquqları barədə məlumatlılığın artırılması, eləcə də birgə tədbirlər vasitəsilə iqtisadiyyatın dayanıqlı inkişafına töhfə verməkdir.

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:20 PM Page 5



# President 5 illik konsepsiyanı təsdiqlədi



***Azərbaycanda məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Nazirlər Kabineti konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirməli, tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Həmçinin konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirməlidir.

Konsepsiyanın məqsədləri mövcud imkan və resurslar nəzərə alınmaqla, Azərbaycanda məhkəmə ekspertizası sahəsinin qabaqcıl beynəlxalq standartlara və müasir çağırışlara uyğun təşkil edilməsinə, ekspert rəylərinin keyfiyyətinin artırılmasına, insanların hüquq və azadlıqlarının etibarlı təmin olunmasına, ədalət mühakiməsinin çevik və səmərəli aparılmasına nail olmaqdan ibarətdir.

# Əli Əsədov Sərdar Berdiməhəmmədovla görüşdü

***Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb. Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və Türkmənistanın daimi neytrallığının 30 illiyi münasibətilə təbriklərini bu ölkənin dövlət başçısına çatdırıb.

Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına və təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycanla Türkmənistan arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# Sabir Rüstəmxanlının sözünü kəsdiyi üçün Rafael Hüseynova töhmət verildi

***Milli Məclis sədrinin müavini, Vətəndaş Həmrəyliyi Partiyasından (VHP) olan deputat Rafael Hüseynova töhmət verilib və ona xəbərdarlıq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə partiyanın məlumatında deyilir. Buna səbəb isə onun Milli Məclisdə keçirilmiş konfrans zamanı partiya sədri Sabir Rüstəmxanlının çıxışını yarımçıq kəsməsidir.

Bildirilib ki, sözügedən məsələ ilə bağlı rayon təşkilatlarından və partiya fəallarından daxil olan müraciətlər müzakirə edilib:

"VHP sədri Sabir Rüstəmxanlının Azərbaycan cəmiyyətində yüksək ictimai-siyasi, ziyalı mövqeyi, nəzərə alınmadan atılan bu addım həm partiyanın nüfuzuna, həm də ümumilikdə siyasi mədəniyyətə xələl gətirir. Milli Məclisin Terminologiya Komitəsinin üzvü, Azərbaycan Dil Qurumunun Başqanı, partiya sədri və Xalq Şairi olmaqdan əlavə bütün ömrünü dilimizin qorunmasına sərf etmiş Sabir Rüstəmxanlıya qarşı bu hörmətsizlik partiyanın parlamentdəki təmsilçisi olan Rafael Hüseynovun ciddi səhvidir. MNTK partiya Nizamnaməsinin 9.2-ci maddəsinə əsasən Ali Məclisin üzvü Rafael Hüseynova töhmət elan edilməsi barədə qərar qəbul edib".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Samir Nuriyev hökumət üzvlərinə tapşırıqlar verdi

***Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dekabrın 11-də növbəti iclası keçirilib.***




"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. Ölkəmizdə bu sahədə formalaşdırılmış müasir yanaşmaların iqtisadi dayanıqlılığın möhkəmləndirilməsinə, sosial rifahın artırılmasına və iqlim dəyişikliklərinə səmərəli uyğunlaşmanın təmin olunmasına xidmət etdiyini söyləyib.

Samir Nuriyev son beş il ərzində xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını, sistemli planlaşdırma prinsiplərini rəhbər tutduğunu və yüksək icra potensialını aydın şəkildə nümayiş etdirdiyini vurğulayıb. Azərbaycanın postmünaqişə dövründə tətbiq edilən sürətli bərpa və quruculuq işlərinin yeni inkişaf modelini formalaşdırdığını deyib.

Təşkilat Komitəsinin sədri bu nailiyyətlərin Azərbaycanın təcrübəsinə beynəlxalq səviyyədə də marağı artırdığını, ölkəmizi bu sahədə etibarlı tərəfdaş kimi tanıtdığını qeyd edib. O, WUF13-ün 2026-cı ildə Bakı şəhərində keçirilməsinin Azərbaycanın beynəlxalq şəhərsalma proseslərinə verdiyi töhfənin, dayanıqlı inkişaf istiqamətində həyata keçirdiyi siyasətin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın bariz göstəricisi olduğunu söyləyib.

Samir Nuriyev WUF13-ə hazırlığın dövlətimizin başçısının birbaşa diqqət mərkəzində olduğunu vurğulayaraq, ilk iclasdan ötən müddətdə bu tədbirə hazırlıq çərçivəsində görülmüş işləri qeyd edib.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, təşkilati-logistika sahələrində görülmüş işlər və gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifəyə uyğun olaraq WUF13-ə hazırlıq prosesi, o cümlədən Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

# Leyla Əliyeva Sümük iliyi nəqli mərkəzinin açılışında

***Dekabrın 11-də Liv Bona Dea Hospitalında Sümük iliyi nəqli mərkəzinin açılış mərasimi keçirilib.***





"Unikal" xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev iştirak ediblər.

Leyla Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun himayəsi altında xəstəxanada müalicə alan azyaşlıya baş çəkib, onun səhhəti ilə maraqlanıb, hədiyyə təqdim edib.

Sonra Sümük iliyi nəqli mərkəzinin açılışı olub.

Yeni mərkəz həm böyüklər, həm də uşaqlar üçün sümük iliyi köçürmələrini həyata keçirəcək. Məlumat verilib ki, mərkəzdə 6 xüsusi izolyasiya olunmuş palata fəaliyyət göstərir. Həmin infrastruktur illik 80 xəstənin qəbuluna və müalicəsinə imkan yaradır.

Qeyd olunub ki, hazırda xəstəxananın tərkibində 8 çarpayılıq hematologiya şöbəsi də xəstələrin ixtiyarındadır. Şöbədəki bütün palatalar müasir HEPA filtrasiyalı pozitiv təzyiq sistemi ilə təchiz olunub ki, bu da xəstələrin infeksiyalardan maksimum qorunmasını təmin edir. Kimyaterapiya preparatlarının hazırlanması biotəhlükəsizlik kabinlərində, hüceyrə toplanması isə müstəqil aferes bölməsində aparılır.

Eyni zamanda, Qan bankı eritrosit, trombosit, plazma və digər komponentlərin hazırlanması, o cümlədən qranulosit süspansiyonunun əldə olunması imkanına malikdir. Köçürmə xəstələrinin təhlükəsizliyi üçün "işınlama" və filtrləmə prosedurları mütəmadi olaraq tətbiq edilir.

Qeyd edək ki, Sümük iliyi nəqli mərkəzi Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Qərara əsasən verilən lisenziya əsasında açılıb.

Xatırladaq ki, sümük iliyi və kök hüceyrə köçürülməsi müxtəlif hematoloji və onkoloji xəstəliklərin müalicəsində tətbiq olunan müasir və effektiv tibbi prosedurdur. Kök hüceyrələr xəstənin özündən (avtoloji) və ya donorundan (alojenik) əldə edilərək, yüksək dozalı kimyaterapiya sonrası orqanizmə köçürülür. Məqsəd xəstə sümük iliyini sağlam hüceyrələrlə əvəz etmək və qan yaradıcılığını bərpa etməkdir.

# Bu gün ümummilli lider Heydər Əliyevin anım günüdür

***Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür.***

"Unikal" xatırladır ki, Heydər Əliyevin vəfat etməsindən 22 il ötür.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində, dəmiryolçu ailəsində dünyaya gəlib. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alıb. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə xidmət edib, 1944-cü ilin mayında isə Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilb. O, Leninqrad (indiki Sankt-Peterburq) və Moskva şəhərlərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Dövlət təhlükəsizliyi orqanlarında iyirmi beş il (1944-1969) çalışan Heydər Əliyev 1964-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilib. H.Əliyevə 1967-ci ildə SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən general-mayor rütbəsi verilib.



Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunda 46 yaşlı Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik edib. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-1982) idarəçiliyin möhkəmlənməsi, kadrlara qarşı tələbkarlığın artırılması nəticəsində iqtisadi-sosial sahədə böyük nailiyyətlər əldə edilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olub.

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9, 10 və 11-ci çağırışlar) deputatı, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini (1974-1979), RSFSR Ali Sovetinin deputatı (XI çağırış, 1985), Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9, 10 və 12-ci çağırışlar) deputatı və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü (8, 9 və 10-cu çağırışlar) olub.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün (21 yanvar, 1990-cı il) Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olub, Ali Sovetin sessiyalarında fəal iştirak edib.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib.

Azərbaycan xalqı 1993-cü ilin may-iyununda Gəncə şəhərində Surət Hüseynovun başçılığı ilə prezident Əbülfəz Elçibəyə qarşı Gəncə qiyamı qaldırılması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Heydər Əliyevin hakimiyyətə gətirilməsi ilə ayağa qalxdı, bu, əsl mənada, milli hərəkata çevrildi.

Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlayıb. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərininqarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyulub.

1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə Əsrin Müqaviləsi imzalanıb.

Heydər Əliyevin prezidentliyi zamanında milli ordu quruculuğunda ciddi dəyişikliklər başlayıb. Təcavüzkar silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olunub.

1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında qanun"un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Heydər Əlyevin təşəbbüsü, bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının Bakıda keçirilən I qurultayı Azərbaycan diasporunun fəaliyyətinin yaxşılaşdırılması və gücləndirilməsi sahəsində çox dəyərli tarixi qərarlar qəbul edib.

2003-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib və öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev 2003-cü il dekabrın 12-də müalicə olunduğu Klivlend Klinikasında (ABŞ) vəfat edib, dekabrın 15-də Bakıda I Fəxri Xiyabanda dəfn olunub.

Bu gün Heydər Əliyev kursunun davamçısı Prezident İlham Əliyev Azərbaycanı güclü dövlətə çevirib.



## Əli Əsədov Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət etdi

***Baş nazir Əli Əsədov dekabrın 11-də Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Əli Əsədov Fəxri xiyabanda Ümummilli Liderin xatirəsini anıb, abidəsinin önünə gül dəstəsi qoyub.

## Şuşada yeni binalar tikiləcək

***"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs yaşayış binalarının tikintisi işlərinin satın alınması üçün tender elan edib.***

"Unikal" xəbər verir ki, satınalmanın ehtimal olunan ümumi dəyəri 16 milyon manatdır.

Şuşanın D-5 massivində 1-ci mərhələdə tikintisi nəzərdə tutulan 6 ədəd (1, 2, 3, 4, 5 və 6 nömrəli) dörd mərtəbəli binalar tikiləcək.

Tenderə 28 yanvar 2026-cı il tarixində yekun vurulacaq.

## Milli Kitabxanada sərgi keçirilib

***Milli Kitabxanada insan hüquqlarının təbliği və müdafiəsi məqsədilə "10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü " adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.***

Sərgilərdə beynəlxalq insan hüquqları haqqında, Heydər Əliyev və Azərbaycanda insan hüquqları, Azərbaycanın ən böyük insan haqları layihəsi - Qərbi azərbaycanlıların qayıdışı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyəti, insan hüquqlarının praktik vəziyyəti, erməni riyakarlığı və s. mövzularda Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, dövri mətbuat materialları nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Beynelxalq_Insan_Huquqlari_gunu/index.htm linkindən istifadə edə bilərlər.

10 dekabr 1948-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsi ilə əlaqədar hər il bu gün "Ümumdünya İnsan Hüquqları Günü" kimi qeyd olunur.

# İlham Rəhimovun gömrükdə işləyən qohumu həbs edildi



***Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin əməkdaşı İsmayıl Məmmədəliyev saxlanılıb.***

”Unikal”ın əldə etdiyi məlumata görə, İ.Məmmədəliyev barəsində 3 ay 20 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, o, Şimal Ərazi Baş Gömrük İdarəsinin rəisi, polkovnik Pərviz Rəhimovun qardaşı Zakir Rəhimovun kürəkənidir. Pərviz Rəhimov isə Rusiya Prezidenti Vladimir Putinin tələbə yoldaşı, iş adamı İlham Rəhimovun qardaşı oğludur.

***Seymur Əli***

# Xocalı türbəsinə bitişik məqbərə yeri aşkar edildi



***Xocalı türbəsinə bitişik məqbərə yeri aşkar edilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun 2025-ci ilin yekunu ilə bağlı hesabatında qeyd olunub.

Qeyd olunub ki, Şamil Nəcəfov Xocalı tarixi-arxeoloji kompleksi ərazisində tədqiqatlar aparıb: “Bu il aparılan tədqiqatlar nəticəsində nekropol ərazisində yerüstü əlamətləri görünməyən, 70 sm dərinlikdə Xocalı türbəsinə bitişik məqbərə yeri aşkar edilib. Eyni zamanda, nekropolda tunc dövrünə aid daha bir kurqan aşkar edilib”.

Həmçinin Xocalı-Gədəbəy mədəniyyətinə aid fərqli struktura malik qəbir abidələri və təkrar dəfnlərin icra olunduğu bütöv nekropol aşkar edilib.

Qeyd edilib ki, Nəcəf Müseyiblinin rəhbərlik etdiyi “Şəmkir” arxeoloji ekspedisiyası 2025-ci ilin Baydar kurqanlarında tədqiqatlar aparılıb: “Aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanan bu tip dəfnlər Gəncə-Qazax bölgəsində Xocalı-Gədəbəy mədəniyyətinə aid nekropolların bəzilərində müşayiət olunsa da, Baydar nekropolunda ilk dəfə olaraq belə dəfn adətinin icra edildiyi bütöv məzarlıq aşkar edilib”.

# Qubada VI-VII-ci əsrlərə aid dəbilqə tapılıb

***İdris Əliyevin başçılıq etdiyi Xınalıq arxeoloji ekspedisiyası Quba rayonu ərazisində antik-ilk orta əsrlərə aid, həmçinin Bərgüşanə adlı tunc dövrünə aid abidədə kəşfiyyat xarakterli qazıntı işləri aparıb.***




”Unikal” xəbər verir ki, bu barədə məlumat Arxeologiya və Antropologiya İnstitutunun hesabatında qeyd olunub.

Hesabata görə, əsas tapıntılar; xilafət puları, müxtəlif muncuqlar, gümüş və tunc bilərzik, tunc sırğa üzük-möhür, tunc güzgü (Çin istehsalı, Tan sülaləsinin dövrünə aid). Bütövlüklə kompleks 8-9 əsrlərə aid edilir. Tunc güzgü Azərbaycanda və Qafqazda ilk tapıntıdır. Digər sahədə, başqa bir qəbirdən dəmir dəbilqə, nizə ucluğu, gümüş löhvələr aşkar edilib ki, ilkin rəylərə görə dəbilqə VI-VII əsrə aid edilə bilər.

# “Bu, indiyə qədər Əmək Məcəlləsinə edilən ən böyük və əsaslı dəyişiklikdir”

## Musa Quliyev: “Yəqin ki, qanun qəbul olunandan sonra qaydalar müəyyənləşəcək ki, hansı sahələrdə distant işlə çalışmaq olar”

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev ”Unikal”a müsahibə verib. O, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, uşağın doğulması ilə əlaqədar kişilərə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsindən, vəfat edən şəxsin sığorta məbləğinin nə zaman ailəsinə veriləbiləcəyindən və digər məsələlərdən danışıb.***

***-Musa müəllim, Əmək Məcəlləsinə və daha bir neçə qanuna dəyişikliklər təklif olunur. Bu dəyişikliklər əsasən hansı sahələri əhatə edəcək və üstünlükləri nədən ibarətdir?***



-Çox vacib dəyişikliklərdir. Təkcə Əmək Məcəlləsinə deyil, eyni zamanda 17 digər qanuna da dəyişiklik olunur. Belə ki, 470-dən çox dəyişiklik var. Bu, indiyə qədər Əmək Məcəlləsinə edilən ən böyük və əsaslı dəyişikliklərdən biridir. Burada Əmək Məcəlləsinə yeni anlayışlar daxil olunur. Həmçinin, Beynəlxalq Əmək Təşkilatının müəyyən tələbləri var ki, onlar artıq bizim qanunvericiliyə gəlir. Burada əsas məqamlardan biri Əmək Məcəlləsinə ”Məsafədən (distant) iş” anlayışı əlavə edilir və onun qaydaları müəyyənləşdirilir. İndiyə qədər bizdə distant iş qanunla yox idi. Yalnız pandemiya dövründə müəyyən qism insanların distant işləməsinə şərait yaradıldı. Amma dünyanın bir çox ölkələrində bu artıq digər əmək qaydaları ilə bərabər tətbiq olunur. Bir çox sahələr var ki, orada evdən çıxmağa və ya iş yerinə getməyə ehtiyac yoxdur. Yaxud həftənin müəyyən günləri iş yerində, digər günlərində isə evindən və ya başqa bir yerdən öz işini kompüter, digər texniki vasitələrlə həyata keçirə bilərsən. Bu, operativliyi artırır, əlavə vaxt itkisinin qarşısını alır, eyni zamanda şəhərlərdə, xüsusilə Bakı kimi tıxac olan şəhərlərdə sıxlıq yaranmasının müəyyən qədər qarşısını alan addımlardan biridir. Yəqin ki, qanun qəbul olunandan sonra qaydalar müəyyənləşəcək ki, hansı sahələrdə distant işlə çalışmaq olar. Eyni zamanda, Əmək Məcəlləsinə “Ailə vəzifələri olan işçi” anlayışı gətirilir. Elə işçilər var ki, ailə vəziyyəti ilə əlaqədar müəyyən işləri ya yerinə yetirə bilmirlər, ya da həmçinin işdən tez, ya gec gedə bilər. Qanun qəbul edildikdən sonra bununla bağlı qaydalar müəyyənləşəcək. Bu da vətəndaşımızın xeyrinə olan məsələdir. Ezamiyyə ilə bağlı məsələ odur ki, insanlarımız ezamiyyəyə gedir, amma onun şərtləri, qaydaları, ezamiyyə xərcləri qanunvericilikdə öz əksini tapmamışdı, yalnız müəyyən qaydalarla müəyyənləşirdi. Bu qaydaları hər kəs başa düşdüyü kimi tətbiq edirdi. Bununla bağlı da Əmək Məcəlləsində dəyişiklik olunur. Digər dəyişikliklər də nəzərdə tutulub ki, onlar da vacibdir.

***-Dəyişikliklərdən biri də uşağın doğulması ilə əlaqədar kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuşdan əvvəl və doğuşdan sonra olan dövrdə cəmi 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsidir. Bu dəyişiklik yeni övladı dünyaya gələn atalar üçün hansı imkanlar yaradacaq?***

-Bu dəyişiklik hamiləlik və doğumla bağlı atalara ödənişli məzuniyyətin verilməsi ilə bağlıdır. İndiyə qədər atalara doğumdan sonra istədiyi halda məzuniyyət verilirdi, amma bu, ödənişsiz məzuniyyət olurdu. O da bir çox insanlara maddi cəhətdən sərf etmirdi. İndi isə iki həftə vaxtı var. İstəyər onun bir həftəsini doğuşdan əvvəl, digər həftəsini isə doğuşdan sonra götürə bilər. Bu qərarı ailə özü verə bilər. Ata iki həftə doğumla əlaqədar haqqı ödənilən məzuniyyətə çıxır. Bu da dövlətin uşağı doğulan ailəyə dəstəyinin ifadəsidir.

***-Bir müddətdir müzakirə olunan məsələlərdən bir də vəfat edən şəxsin sığorta məbləğinin ailəsinə verilməsi ilə bağlıdır. Deputat həmkarlarınızdan bu istiqamətdə təkliflərini səsləndirənlər olub. Bununla bağlı qanunvericiliyə hansısa dəyişiklik edilməsi gözlənilirmi?***

-Yaxın illərdə ola bilər, amma bu gün və sabah üçün real məsələ deyil. Vəfat edən şəxsin sığorta məbləğinin ailəsinə verilməsi könüllü sığorta qüvvəyə minəndən sonra, yəni, özəl pensiya fondları yaranandan sonra könüllü müqavilə əsasında bunu etmək olar. İndiki halda Dövlət Sosial Müdafiə Fondu bunu edə bilmir. Bunu etsə, fondun maliyyə imkanları tükənə bilər. Çünki bu gün işlədiyimiz dövrdə əməkhaqqımızdan tutulan sığorta haqları gələn ay pensiyaçılara verilir. Alternativ olaraq bu məsələ gündəlikdə var, hökumət üzərində işləyir. Özəl pensiya fondları yarananda bu imkanlar ola bilər.

***-Son günlərdə işsizlərin (qeyri-formal məşğul şəxslər) aylıq 16 manat icbari tibbi sığorta haqqı ödəyəcəyi barədə ”Tibbi sığorta haqqında” qanuna edilən dəyişikliklər geniş müzakirələrə səbəb olub…***

-Bu məsələyə maliyyə naziri Sahil Babayev tam aydınlıq gətirdi. Bununla bağlı bütün suallar aradan qalxdı. İşləməyən bütün şəxslərin, uşaqların, pensiyaçıların sığorta haqqı dövlət tərəfindən ödəniləcək. Yalnız qeyri-formal işləyən, qazanc əldə edən, amma vergi, sığorta ödəməyən şəxslər buna cəlb ediləcəklər. Onları işləməyənlərdən hansı şəkildə ayıracaqları ilə bağlı qaydalar üzərində işləyiblər. Yəqin ki, yaxın bir ayda bu məsələyə aydınlıq gətiriləcək. Faktiki olaraq işi və qazancı olmayan şəxslərin sığorta ödənişi dövlət tərəfindən həyata keçiriləcək.

***-Azərbaycanda çoxuşaqlı anlayışının 5 uşaqdan 3 uşağa endirilməsi də əsas təklif edilən məsələlərdən biridir. Növbəti ildə bununla bağlı dəyişiklik ola bilər?***

- Hökumətlə bu barədə müzakirə aparırıq. Bu, maliyyəyə bağlı məsələdir. Burada böyük vəsait lazımdır. Hökumətin bu məsələyə etirazı yoxdur, sadəcə hələ baxılır. Bu reallıqdır, yəqin ki, biz buna gedəcəyik.

***Anar Kəlbiyev***

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:20 PM Page 8



# Azərbaycandakı bəzi banklara ağır ittihamlar




***Həm qanunsuzdur, həm də qeyri-etik: müştəriləri soymağın yeni yolunu tapıblar - Şok təfərrüatlar!***

Bəzi banklar müştərinin kartından, işsiz qalması halında kredit öhdəliyini qarşılamaq məqsədilə əlavə sığorta ödənişləri və s. xidmət haqları tutur. Bu ödənişlər bir çox müştəri tərəfindən narazılıqla qarşılanır, çünki ödənişlərin məcburi olub-olmaması, tutma qaydaları və geri qaytarılma imkanları barədə kifayət qədər məlumat olmur.

Bank eksperti İsmayıl Məmmədov "Qaynarinfo"ya açıqlamasında deyib ki, bankların əsas missiyası şəffaflıq, etibar və təhlükəsiz xidmətdir, ona görə də əlavə sığorta məhsullarının heç biri məcburi ola bilməz: "Bu xidmətlər yalnız müştərinin könüllü razılığı ilə təqdim olunur. İstənilən vaxt da imtina mümkündür. Əgər bank "məcburidir" deyirsə, bu, həm qanunsuz, həm də etik olmayan yanaşmadır. Çünki bankın birbaşa vəzifəsi kart əməliyyatlarının təhlükəsizliyini təmin etmək, 3D Secure, SMS təsdiqləmə və monitorinq sistemlərini ödənişsiz təqdim etmək, riskləri idarə etməkdir. "Dələduzluq sığortası" bankın öz təhlükəsizlik öhdəliyini müştəriyə satması demək deyil".

Qeyd edək ki, Mülki Məcəllənin 422 və 423-cü maddələri, həmçinin "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun 10-cu maddəsi tələb edir ki, bütün müqavilə şərtləri müştəriyə əvvəlcədən, açıq şəkildə təqdim olunsun. "İşsizlik sığortası", "dələduzluq sığortası" və digər əlavə xidmətlər yalnız müştərinin yazılı və ya elektron təsdiqi ilə aktivləşdirilə bilər. Razılıq yoxdursa, tutulmuş məbləğ hüquqi qüvvə daşımır və bu, istehlakçı hüquqlarının pozulmasıdır.

Vəkil Roman Qaraşov isə mövzu ilə bağlı "Musavat.com"a bildirib ki, Azərbaycan qanunvericiliyinə əsasən, bankların müştərinin kartından "işsizlik sığortası", "dələduzluq sığortası" və digər əlavə xidmətlərin göstərilməsi adı ilə ödəniş tutması yalnız müştərinin açıq və aydın razılığı olduqda mümkündür: "Müştəriyə əvvəlcədən məlumat verilmədən aktivləşdirilən xidmətlərin hüquqi qüvvəsi yoxdur və bu, istehlakçı hüquqlarının pozulması kimi qiymətləndirilir. Bankın təhlükəsizlik sistemlərini - 3D Secure, SMS təsdiqləmə, monitorinq və digər riskə nəzarət mexanizmlərini ödənişsiz təqdim etməsi bankın funksional öhdəliyidir və beynəlxalq təcrübədə də bu yanaşma qəbul olunub. Məsələn, Avropa İttifaqının İstehlak Kreditləri Direktivinə görə istehlakçıya kreditlə bağlı əlavə sığorta və ya xidmətin məcburi şəkildə satılması qadağandır; ABŞ-də CFPB isə belə halları "aldadıcı və ədalətsiz praktika" kimi qiymətləndirir. Bu baxımdan, əlavə sığorta xidmətləri yalnız könüllü əsasda qəbul edilə bilər və bankın onları "məcburi" kimi təqdim etməsi hüquqi və etik prinsiplərlə ziddiyyət təşkil edir.

Belə hallarla üzləşən müştəri ilk növbədə bankdan yazılı izahat və tutulmuş vəsaitin geri qaytarılmasını tələb etməlidir. Əgər bank məsələnin həllində maraqlı olmazsa, istehlakçı Azərbaycan Mərkəzi Bankına şikayət etmək hüququna malikdir. Bu mərhələdə də nəticə əldə olunmazsa, məsələ məhkəmə qaydasında mübahisələndirilə bilər. Məhkəmə Mülki Məcəllənin 422-423-cü maddələrinə əsaslanaraq, razılıq olmadan tutulmuş ödənişlərin geri qaytarılmasına və müqavilə şərtlərinin istehlakçı mənafeyinə uyğun şəkildə dəyişdirilməsinə qərar verə bilər. Bu mexanizmlər həm milli qanunvericilikdə, həm də beynəlxalq istehlakçı müdafiəsi standartlarında olduğu kimi, müştərinin hüquqlarını qorumağa və bankların daha şəffaf, ədalətli fəaliyyətini təmin etməyə xidmət edir".

Bir sözlə, onsuz da fəaliyyətlərindən kütləvi şikayətlərin səngimədiyi bəzi banklar indi də yeni kələyə əl atmaqla vətəndaşlar arasında narazılıq yaradırlar. Bəzi banklar tərəfindən müştərinin kartından işsiz qalması halında kredit öhdəliyini qarşılamaq məqsədilə onun razılığı olmadan əlavə sığorta ödənişləri və s. xidmət haqları tutmasının hüquqi əsası yoxdur. Sözügedən ödənişləri tətbiq edən banklar hələlik dilə gətirilən şikayətlərə münasibət bildirməyiblər. Yaranmış vəziyyətdə - banklar tərəfindən ödəniş razılıqsız tutulduqda vətəndaşlar:

- bankdan yazılı izahat tələb edə və vəsaitin geri qaytarılmasını istəyə;
- cavab qane etməzsə, Azərbaycan Mərkəzi Bankına şikayət verə;
- eyni zamanda, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət edə bilər
- son mərhələ olaraq məsələni məhkəmə qaydasında mübahisələndirə bilərlər.

Çünki söhbət hər bir halda istehlakçı hüquqlarının pozulması faktından gedir və kimlərinsə özünü ölkə qanunlarının üzərində göstərməyə çalışması qəbuledilməzdir.

Mövzunu diqqətdə saxlayacağıq.

***Toğrul Əliyev***

# Ekspert məhkəmədə "Şərurlu İsfəndiyar"la bağlı növbəti rəyi açıqladı

***Böhtan və təhqir maddələri ilə xüsusi ittiham qaydasında məhkəməyə verilən "Şərur MTK"nın sahibi İsfəndiyar Axundovun ("Şərurlu İsfəndiyar") növbəti məhkəmə prosesi keçirilib.***



"Unikal"ın məlumatına görə, iş adamı Binəqədi Rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə iş adamı ilə ekspert çıxış edərək növbəti rəyi açıqlayıb.

Məhkəmədə ekspert Nəzakət Qaziyeva işlədilən bütün söz və ifadələrin ədəbi dilə uyğun olduğunu bildirib:

"Linqvistik ekspertizada təqdim edilmiş kəskin fikirlər tənqidi dəyərləndirilə bilər, təhqir səciyyəsi daşımır. Yəni sözügedən nitq emosional olsa da təhqir hesab edilmir".

Qarşı tərəfin vəkili Asim Abbasov rəyə münasibət bildirərək onun mötəbər sübut kimi qəbul olunmasına etiraz edib:

"Etirazımızın səbəbi odur ki, dilçilik institutunun 2021-ci ildə təyin olunan hazırkı rəhbəri, AMEA-nın həmin vaxt rəhbəri olmuş şəxslə və İsfəndiyar Axundov arasında əlaqənin mövcudluğunu ehtimal edərək bununla bağlı etiraz edirik".

Hakim Vüsal Tağıyev etirazın yazılı şəkildə məhkəməyə təqdim edilməsinə etiraz etməyib.

Növbəti proses dekabrın 15-nə təyin edilib.

Qeyd edək ki, İsfəndiyar Axundov iş adamı Emin Səməndərovun ünvanına təhqiramiz ifadələr işlətdiyi üçün qarşı tərəfdən xüsusi ittiham qaydasında şikayət edilib.Onun barəsində Cinayət Məcəlləsinin 147.2-ci (böhtan) və 148-ci (təhqir) maddələri üzrə xüsusi ittiham qaydasında məhkəməyə verilib.

***Seymur Əli***



# Əhməd İsmayılov Suriyanın informasiya naziri ilə görüşdü

***Əbu-Dabidə keçirilən "Bridge" media və məzmun sənayesi sammiti çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Suriya Ərəb Respublikasının informasiya naziri Həmzə Əl-Mustafa arasında ikitərəfli görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüş zamanı Azərbaycan ilə Suriya arasında media və kommunikasiya sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri, informasiya axınının genişləndirilməsi və bu sahədə qarşılıqlı maraq doğuran istiqamətlər ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda dezinformasiya ilə mübarizə, etibarlı informasiya mühitinin formalaşdırılması, dialoqun genişləndirilməsi və institusional əlaqələrin inkişaf etdirilməsi məsələləri də diqqət mərkəzində olub.

# Ceyhun Bayramov Tamas Sulyokla görüşdü

***Macarıstana işgüzar səfər çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstan Prezidenti Tamas Sulyok tərəfindən qəbul edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş ikitərəfli əməkdaşlığın dinamik gündəliyi üzrə fikir mübadiləsi aparmaq və son illərdə əldə olunan irəliləyişi dəyərləndirmək üçün əhəmiyyətli bir platforma yaradıb.

Tərəflər ticarət, investisiya, enerji təhlükəsizliyi, yaşıl texnologiyalar, nəqliyyat əlaqəliliyi, təhsil və mədəni mübadilə kimi əsas sahələr üzrə strateji tərəfdaşlığın genişləndirilməsini müzakirə ediblər.

Azərbaycan və Macarıstan arasında qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsində davamlı siyasi dialoqun və yüksək səviyyəli təmasların əhəmiyyəti vurğulanıb.

Regiondakı post-münaqişə reallıqları, Ermənistan ilə normallaşma prosesi, eləcə də Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərinə də toxunulub.

Tərəflər regional və çoxtərəfli çərçivələrdə genişlənən əməkdaşlığı vurğulayaraq iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində ortaq öhdəliyi qeyd ediblər.

# Generalın oğlu DGK-nə 5 milyon manat zərər vurdu - Həbs olundu

***Hövsan Dəniz Gömrük Postunun sabiq rəisi Fərid Usubov Baş Prokurorluq Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, sabiq rəis Fərid Usubov Dövlət Gömrük Komitəsinə 5 milyon manat zərər vurub.

Qeyd edək ki, Fərid Usubov uzun illər Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini olmuş general-leytenant Cəbrayıl Usubovun oğludur.

Fərid Usubovun həbs xəbərini ilk olaraq "Gunun-sesi.info" saytı yayıb.

***Seymur Əli***




## Növbəti “Mövsüm Yarmarkası” təşkil olunacaq

***13-14 dekabr tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti “Mövsüm Yarmarkası” baş tutacaq.***

”Unikal” xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.

Yarmarkada 30-a yaxın regiondan iştirak edəcək 60-a yaxın fermer 140-a qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Burada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsuldan analiz verə bilərlər.

Yarmarka həftəsonu, 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının yanı) ünvanında təşkil olunacaq.

Qeyd edək ki, “Mövsüm Yarmarkası”-nda fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

## Ermənilərin məhkəməsində replika hüququ üçün imkan yaradıldı

***Dekabrın 11-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.***

”Unikal” xəbər verir ki, məhkəmə iclasında tərəflərə replika hüququndan istifadə etmək imkanı yaradılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışında əvvəlcə təqsirləndirilən şəxslərin cinayətkar birlikdə rollarının mübahisələndirilməsinə dair hissə barədə danışıb. Xatırladıb ki, müdafiə tərəfinin fikrincə, cinayətkar birlik dünya təcrübəsinə əsasən, kriminal cinayətlərin törədilməsi üçün yaradılır. Dövlət ittihamını müdafiə edən prokurorun sözlərinə görə, məhkəmə iclasında tədqiq edilmiş sübutlarla da təsdiqlənib ki, Birinci Qarabağ müharibəsi başlanmazdan bir neçə il əvvəl qeyd edilən cinayətkar dəstələr formalaşdırılmağa başlanmışdı: “Doğrudur, tədqiq edilmiş sübutlarla müəyyən edildi ki, həmin dəstələr həqiqətən də Ermənistan rəhbərliyi tərəfindən dəstəklənib və silahlandırılıb. Lakin sonradan biz gördük ki, həmin silahlı dəstələrin rəhbərləri və üzvləri Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma qurumda və Ermənistanda mühüm siyasi və hərbi postlar tutdular. Yəni, həmin dəstələr təsadüfi, özbaşına birliklər deyildi və sonradan da Azərbaycan ərazilərini işğal edən cinayətkar ordunun tərkib hissələrinə çevrildilər. Təqsirləndirilən şəxslərə gəldikdə, onlardan məsələn, David Manukyan Şuşa batalyonunun üzvü, Davit İşxanyan “28-ci Martuni” batalyonunun komandiri olub. Hansı ki, bu və digər batalyonlar məhz qeyd edilən qanunsuz dəstələrin adının dəyişmiş, daha mütəşəkkil və hərbiləşdirilmiş forması olub”.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Ziya Məmmədovun səs-küylü tələbə yoldaşının oğlu ilə bağlı yeni qalmaqal

## Sabiq nazirin keçmiş kadrının övladı yarım milyon manatı necə mənimsəyib?

***Xırdalan dəmir yolu stansiyasının keçmiş rəisi Fəyyaz Xankişiyevin biznesmen oğlu Zamiq Xankişiyev cinayət məsuliyyətinə cəlb edilib. O, 3 nəfərin 500 min manatdan artıq (xüsusilə külli miqdarda dələduzluq) pulunu ələ keçirməkdə ittiham olunur.***

Şirkət rəhbəri zərərçəkmişlərin şikayəti əsasında Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən tutulub. Z.Xankişiyev əvvəl həbs edilsə də, sonradan ziyanın bir hissəsini ödədiyi üçün barəsində “polisin nəzarəti altına vermə” növündə qətimkan tədbiri seçilərək sərbəst buraxılıb.



“Qafqazinfo”nun əldə etdiyi məlumata görə, cinayət işinin istintaqı yekunlaşaraq məhkəməyə göndərilib.

Qeyd edək ki, mediada İmişlidən olan iş adamı barədə əvvəllər də şikayətlər yayımlanıb. Mətbuata üz tutan vətəndaşlar “Azərbaycan Dövlət Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Xırdalan stansiyasının rəisi vəzifəsində çalışmış atası Fəyyaz Xankişiyevi də dələduzluqda ittiham ediblər.

Sonuncu keçmiş nəqliyyat naziri Ziya Məmmədovun tələbə yoldaşı olub. Onun bu addan istifadə edərək İmişlidən Bakıya hər gün vaqonlarla qanunsuz şəkildə qum-çınqıl materialları daşıtdırması barədə də iddialar var.

F.Xankişiyev 2014-cü ildə elə qrup yoldaşı Z.Məmmədov tərəfindən işdə yol verdiyi ciddi nöqsanlara və quruma vurduğu maddi ziyana görə vəzifəsindən azad edilib. Deyilənlərə görə, Xankişiyevi bu vəzifəyə də məhz sabiq nazir gətiribmiş. Yəni o, bir növ, Ziya müəllimin kadrı olub.

Maraqlıdır burasıdır ki, Fəyyaz Xankişiyevin qardaşı da Z.Məmmədovun nazir olduğu dövrdə stansiya rəisi işləyib. “Unikal”ın əldə etdiyi məlumata görə, Aydın Xankişiyev Vətağa stansiyasının rəisi vəzifəsini tutub. O, F.Xankişiyev işdən azad edilməzdən bir neçə gün öncə həmin postdan kənarlaşdırılıb. Xankişiyevlərin bacısı oğlu Nizami Məmmədov isə uzun illər İmişli stansiyasının rəisi olaraq çalışıb. Bir sözlə, Z.Məmmədovla tələbə yoldaşı olması F.Xankişiyev və bir neçə yaxınının dəmir yol nəqliyyatında mühüm vəzifələrə gətirilməsində həlledici rol oynayıb.

Hazırda dələduzluqda ittiham olunan oğul Xankişiyev isə bahalı həyat tərzi ilə gündəmdə olub. O, “Bentley” markalı 10-PP-555 nömrə nişanlı və seriya nömrəsinin sonu 400-lə bitən bir neçə lüks avtomobilin sahibidir. Müxtəlif vaxtlarda avtomobil kolleksiyasını sosial şəbəkələrdə nümayiş etdirib.

Xatırladaq ki, oktyabrda keçmiş nəqliyyat naziri Ziya Məmmədovun ölkədən çıxışına “stop” qoyulduğu barədə xəbər yayılıb. “Konkret.az” yazıb ki, bu barədə sayta etibarlı mənbələrdən məlumat daxil olub.

Xatırladaq ki, eks-nazirin adı Ramiz Mehdiyev qalmaqalında hallanır. Ayrı-ayrı mənbələrin təsdiqlədiyi ehtimallara görə, Ramiz Mehdiyev Ziya Məmmədovun qardaşı Elton Məmmədov vasitəsilə əlaqə yaradırmış.

Digər mənbələr isə bildirir ki, onun yanına gizli tuneldən gedib-gələn eks vəzifəli şəxslər artıq xüsusi xidmət orqanlarının diqqətini çəkib. “Görünən odur ki, dövlətə xəyanətdə ittiham olunan Ramiz Mehdiyevin adamlarının tam ifşasına önümüzdəki həftələrdə şahid olacağıq” - adıçəkilən sayt yazıb.

Qeyd edək ki, hələ 2016-2017-ci illərdə Ziya Məmmədovun xaricə çıxışına qadağa qoyulması barədə iddialar yayılmışdı.

Yeri gəlmişkən, 2017-2018-də onun oğlu Anar Məmmədovun Bakıdakı daşınmaz əmlaklarına həbs qoyulması barədə rəsmi məhkəmə xəbərləri var.

Yola salmaq üzrə olduğumuz həftə isə məlumat yayılıb ki, xaricdə böyük biznes şəbəkələri quran sabiq məmurların fəaliyyəti son vaxtlar yenidən diqqət mərkəzinə düşüb. İddialara görə, bu sırada keçmiş mədəniyyət naziri Əbülfəs Qarayev, Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmov, keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasov, sabiq Bakı meri Hacıbala Abutalıbov, sabiq baş nazirin birinci müavini Abbas Abbasov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri, Əli Həsənov, Prezident Administrasiyasının (PA) keçmiş rəhbəri Ramiz Mehdiyev, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla yanaşı, sabiq nəqliyyat naziri Ziya Məmmədov da yer alır. Bildirilir ki, onların xaricdəki iri maliyyə dövriyyələri dövlət nəzarətindən kənarda qaldığı üçün həm iqtisadi təhlükəsizlik, həm də şəffaflıq baxımından ciddi suallar yaradır. “Əgər belə biznes şəbəkələrinin mövcudluğu faktiki olaraq təsdiqlənsə və həmin şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanarsa, bu zaman Baş Prokurorluğun Xüsusi Müsadirə İdarəsi prosesi nəzarətə götürə bilər. Beynəlxalq əməkdaşlıq kanalları vasitəsilə xaricdəki əmlakların və mümkün qanunsuz maliyyə axınlarının qarşısının alınması təmin edilir” - vəkil Mehman Muradlı “Globalinfo”ya bildirib.

Maraqlıdır ki, bir neçə ay öncəyədək özü haqqında bir çox iddianı rahatlıqla cavablandıran Z.Məmmədov xüsusilə Ramiz Mehdiyev olaylarından sonra tam səssizliyə bürünüb və barəsindəki heç bir ittihama reaksiya verməyib...

***Toğrul Əliyev***

# Məmur rüşvətxorluğunun görünməyən üzü

***Həftənin replikası: orta ranqlı bir məmur belə milyonlarca manatlıq vardövlətə sahibdirsə, kim bilir, bəzi nazirlərdə, icra başçılarında nələr var, nələr!***

Səhiyyə Nazirliyinin qanunsuz plastik cərrahiyyəyə və başqa tibbi fəaliyyətə icazə verilməsi ilə bağlı ittiham olunan əməkdaşlarının milyonlarla qiymətləndirilən əmlakları üzərinə həbs qoyulub. Əmlakların çoxu müxtəlif ünvanlarda yerləşən mənzillərdən ibarətdir.



Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdiri vəzifəsində işləmiş Səidə Rüstəmova, həmin şöbənin baş mütəxəssis-böyük inspektoru olmuş Ruhiyyə Məhərrəmova və nazirliyin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin keçmiş akkreditasiya şöbəsinin müdiri Lətafət Cabbarova mülklərin bəzilərini yaxınlarının adına rəsmiləşdiriblər.

"Qafqazinfo" yazıb ki, ən çox əmlak isə cinayət işinin əsas fiquru sayılan Səidə Rüstəmovanındır. O, işlədiyi müddətdə çoxsaylı daşınmaz əmlaka sahib olub. Əmlakların orta bazar dəyəri 5 milyon manata yaxındır.

Səidə Rüstəmovanın özünün və anası ilə oğlunun adına rəsmiləşdirdiyi əmlakların siyahısını təqdim edirik:

- Yasamal rayonu, Həsən Məcidov küçəsində mənzil - Qiymət: 463 365 manat;
- Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsində iki mənzil - Qiymət: 323 605 manat biri, 332 755 manat digəri;
- Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi mənzil - Qiymət: 429 488 manat;
- Yasamal rayonu, İnşaatçılar prospektində mənzil - Qiymət: 670 275 manat;
- Yasamal rayonu, İnşaatçılar prospektində 18 m? qaraj - Qiymət: 45 000 manat;
- Abşeron rayonu, Novxanı kəndində torpaq sahəsi - Qiymət: 43 250 manat
- Sabunçu rayonu, Nardaran qəsəbəsində bağ sahəsi - Qiymət: 78 000 manat;
- Bakı şəhəri, Nəsimi rayonu, Həsən Əliyev küçəsində ev;
- Bakı şəhəri, Yasamal rayonu, Həsən Məcidov küçəsində mənzil;
- Yasamal rayonu, Xarici dairəvi yol 10, "Royal Park" yaşayış massivində ev;
- Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsində ev;
- Abşeron rayonu, Novxanı bağlarında fərdi yaşayış evi;
- Abşeron rayonu, Novxanı kəndi bağlarında mənzil;
- "Mercedes-Benz" və "?Audi Q5" minik avtomobilləri.

Məhkəmə qərarı ilə eyni cinayətlərdə ittiham olunan Lətafət Cabbarova və Ruhiyyə Məhərrəmovanın fərqli ünvanlarda bir neçə mənzilləri və avtomobilləri üzərinə həbs qoyulub.

Qeyd edək ki, ötən həftə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən istintaq olunan bu cinayət işinin detalları barədə geniş məlumat vermişdik. Həmin xəbərimizdə həkim kimi işləyə bilmək üçün rüşvət verən şəxslərin siyahısını da təqdim etmişdik.

Hazırda bu iş Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə araşdırılır. Ev dustaqlığında saxlanılan xanımların təqsirləri sübuta yetirilərsə, onları 10 ildən çox həbs cəzası gözləyir.

Yuxarıdakılar məsələnin bir tərəfidir. İndi gələk, necə deyərlər, aysberqin görünməyən tərəfinə... Siyahısını təqdim etdiyimiz əmlaklar bir nazirliyin sadəcə şöbə müdiri vəzifəsində işləmiş əməkdaşının qanunsuz yollarla yiyələndiyi sərvətdir, üstəlik, böyük ehtimalla həmin sərvətin müəyyən hissəsidir. İndi özünüz təsəvvür edin: əgər Azərbaycanda az qala üçüncü dərəcəli, uzaqbaşı orta ranqlı bir məmur öz səlahiyyətlərindən sui-istifadə etməklə qeyri-qanuni şəkildə bu qədər var-dövlət sahibinə çevrilirsə, daha yüksək post sahibləri hansı miqyasda sərvət sahibləridir!

Əslində, indiyədək həbsə atılan, işdən azad olunan sabiq nazirlərin, nazir müavinlərinin, icra başçılarının timsalında biz vəzifəyə Xalq və Dövlətə layiqli xidmət vasitəsi olaraq deyil, özünün, ailəsinin fantastik şəkildə varlanması vasitəsi kimi baxanların nə qədər qısa zamanda necə böyük sərvətə yiyələndiyini görmüşük. Lakin indi orta ranqlı bir məmurun nümunəsində Azərbaycanın köhnə məmur korpusunun mühüm bir xüsusiyyəti ortaya çıxır: ənənəvi qaydada, "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə öyrəşmiş, rüşvəti, korrupsiyanı öz vəzifə borcunun ən mühüm, ayrılmaz parçası sayan bu adamlar üçün hansı postu tutmalarından asılı olmayaraq oliqarxlaşmaq bir su içimi kimi asandır. Onların vəzifə öhdəliklərini layiqincə yerinə yetirmək bacarıqları yetərincə olmasa da, oturduqları kreslo hesabına varlanmaq qabiliyyəti xeyli yüksəkdir. Beləleri hansısa iş adamından daha sürətlə, daha az vaxtda daha çox varlana bilirlər!

Sadəcə bu acı, ağrılı həqiqət belə, Azərbaycanda məmur korpusunun TƏMİZLƏNMƏSİ və SAĞLAMLAŞDIRILMASI istiqamətində son illər atılan radikal addımların nə qədər doğru, yerində olduğunu bir daha ortaya qoyur. Bir daha aydınlaşır ki, bu TƏMİZLƏMƏ və SAĞLAMLAŞDIRMA addımları olmadan ölkədə ənənəvi məmur obrazının dəyişməsi, dövlət qulluğuna vətəndaş etimadının və etibarının bərpası çox çətin olardı...

*Sənan Mirzə*

## Azərbaycan və Özbəkistan TŞ katibləri hərbi-texniki əməkdaşlığı müzakirə ediblər



***Dekabrın 10-da Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının (TŞ) katibi Ramil Usubov Özbəkistan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudovla görüşüb.***

Bu barədə "Unikal"a Təhlükəsizlik Şurasının mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, dünyada baş verən qarşıdurmaların, hərbi-siyasi çağırış və təhdidlərin artdığı müasir dövrdə əməkdaşlığın və birgə səylərin vacibliyi, prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin siyasi iradələrinə uyğun olaraq, iki qardaş ölkə arasında strateji tərəfdaşlığın, səmərəli işbirliyinin ən müxtəlif sahələr üzrə inkişaf etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı hərbi və hərbi-texniki sahədə əlaqələrin daha da möhkəmləndirilməsinin, genişləndirilməsinin, o cümlədən qarşılıqlı təcrübə mübadiləsinin vacibliyi, bunun da təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Mərkəzi Asiyada sabitliyin və təhlükəsizliyin qorunması istiqamətində yeni imkanlar açacağına əminlik ifadə edilib.

## Mərkəzi Bank bu MMC-nin ödəniş əməliyyatlarını dayandırdı




***"Paysis" MMC-yə lisenziyası çərçivəsində göstərilən bütün ödəniş xidmətlərinin (ödəniş xidməti istifadəçilərinin vəsaitlərinin geri qaytarılması əməliyyatları istisna olmaqla) dayandırılması barədə göstəriş verilib.***

Bu barədə "Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir.

Məlumata görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəsmi açıqlamasına əsasən internet informasiya resurslarından istifadə etməklə qumar oyunlarının təşkil edilməsi və əlaqəli qanunsuz əməllər ilə bağlı başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxslərə yanaşı "Paysis" MMC və onun rəhbəri barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi üzrə icraat başlanılmış və cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət işinin yekunları ilə bağlı məhkəmə qərarı qüvvəyə minənədək Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununun 63.1-ci maddəsi rəhbər tutularaq, "Paysis" MMC-yə lisenziyası çərçivəsində göstərilən bütün ödəniş xidmətlərinin (ödəniş xidməti istifadəçilərinin vəsaitlərinin geri qaytarılması əməliyyatları istisna olmaqla) dayandırılması barədə göstəriş verilib.

## Məhkəmə keçmiş vəkillə bağlı həbs qərarı verdi

***Dələduzluq etməkdə təqsirləndirilən Vəkillər Kollegiyasının keçmiş üzvü, hüquqşünas Namizəd Səfərov barəsində həbs qətimkan tədbirinin seçilməsi üçün məhkəməyə təqdimat daxil olub.***

"Unikal" xəbər verir ki, təqdimata Xətai Rayon Məhkəməsində baxılıb. Qərara əsasən, onun barəsində 4 ay müddətə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, N.Səfərovu dekabrın 9-u polis əməkdaşları saxlayıb.

O, vətəndaşın etibarından sui-istifadə edərək 53 min manat məbləğində pul vəsaitini ələ keçirməkdə təqsirləndirilir.

İttihama görə, o, işdən çıxarılan vətəndaşı yenidən vəzifəyə bərpa etdirəcəyinə inandırıb. Ondan külli miqdarda pul alıb, lakin verdiyi vədi yerinə yetirmədiyindən vətəndaş polisə müraciət edib.

N.Səfərova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:21 PM Page 11



## Azərbaycan və Türkiyə HDQ nümayəndələri arasında görüş keçirilib



***Türkiyə Hərbi Dəniz Qüvvələrinin (HDQ) Naviqasiya Hidroqrafiya və Okeanoqrafiya İdarəsinin nümayəndə heyəti Azərbaycana səfər edib.***

Azərbaycan HDQ-nin qərargahında keçirilən görüş zamanı yeni nəsil elektron naviqasiya məlumatlarının hazırlanması, beynəlxalq standartların tətbiqi və təcrübə mübadiləsi ilə bağlı məsələlər müzakirə olunub.

Səfər proqramı çərçivəsində Türkiyə nümayəndə heyəti Azərbaycan HDQ-sinin Hidroqrafiya İdarəsinin mütəxəssisləri ilə hidroqrafik məlumatların toplanması və emalı, S-101 ENC xəritələrinin hazırlanması, eləcə də S-100 çərçivəsində rəqəmsal naviqasiya sistemlərinin inkişafı mövzularında fikir mübadiləsi aparıb, təcrübələrini bölüşüblər.

Tərəflər bu kimi görüşlərin Azərbaycan və Türkiyə arasındakı mövcud əməkdaşlığın daha da dərinləşdirilməsinə, iki ölkə arasında hidroqrafiya, naviqasiya və okeanoqrafiya sahələrində birgə fəaliyyət imkanlarının genişləndirilməsinə mühüm töhfə verdiyini qeyd ediblər.

## Cari ildə nə qədər ev tikilib?



***Cari ilin yanvar-sentyabr aylarında istifadəyə verilmiş sosial və yaşayış obyektlərinin sayı məlum olub.***

"Unikal" rəsmi statistikaya istinadən xəbər verir ki, hesabat dövründə ümumi təhsil üzrə iki yeni məktəb binası istifadəyə verilib. Bu müəssisələrdə ümumilikdə 932 şagird yeri yaradılıb. Məktəbəqədər təhsil sahəsində isə 80 yerlik bir yeni bağça istifadəyə verilib.

Yanvar-sentyabr aylarında ölkə üzrə ümumilikdə 24 min 478 mənzildən ibarət yaşayış evləri istifadəyə verilib. Bu mənzillərin ümumi sahəsi 3 milyon 174 min 379.6 kvadratmetr təşkil edib.

Fərdi yaşayış və bağ evlərinin sayı 17 min 685 (2 622 167.5 kv.m), dövlət müəssisələri tərəfindən inşa edilən yaşayış evlərinin sayı 69 (6 645 kv.m), qeyri-dövlət müəssisələri tərəfindən inşa edilən yaşayış evlərinin sayı isə 6 min 724 (545 567.1 kv.m) olub.

## Bu il tibb müəssisələrində yeni şöbələr fəaliyyətə başlayıb



***"Cari ildə Respublika Pediatriya Mərkəzinin tabeliyində olan Uşaq Klinik Xəstəxanasının tərkibində Yenidoğulmuşların patologiyası və Yenidoğulmuşların reanimasiyası, Sabunçu Tibb Mərkəzində Üz-çənə cərrahiyyəsi şöbələri fəaliyyətə başlayıb".***

"Unikal" xəbər verir ki, bu barədə Xəzər Tibb Mərkəzinə təşkil olunan mediaturda çıxışı zamanı TƏBİB-in İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentinin rəhbəri Zamirə Ədilova məlumat verib.

Onun sözlərinə förə, Klinik Tibbi Mərkəzdə və Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında Oftalmoloji əməliyyatlar, Sabirabad, Qobustan, Astara rayon mərkəzi xəstəxanalarında və Pirallahı Tibb Mərkəzində avastin inyeksiyasının, Salyan Rayon Mərkəzi Xəstəxanasında uroloji əməliyyatların, Qəbələ Rayon Mərkəzi Xəstəxanasında damar cərrahiyyəsi əməliyyatlarının icrasına başlanılıb.

Departament rəhbəri qeyd edib ki, bunlarla yanaşı, Qəbələ Rayon Mərkəzi Xəstəxanasında Travmatoloji Mərkəz yaradılıb. Habelə Klinik Tibbi Mərkəz, Respublika Klinik Xəstəxanası və Sumqayıt Tibb Mərkəzində endoprotez, Şirvan Şəhər Mərkəzi Xəstəxanasında kataraktanın FAKO cihazı ilə korreksiyası və intraoluyar linzanın implantasiyası, Cəlilabad Rayon Mərkəzi Xəstəxanasında beyin damarlarının angioqrafiyası əməliyyatlarının icrasına başlanılıb".

# Tikinti oliqarxlarının növbəti özbaşınalığı

## Onların daha bir qanunsuzluğu ortaya çıxdı - MTK-ların gözü doymaq bilmir!

***Azərbaycanda tikinti oliqarxlarının özbaşınalıqları barədə xəbərlərin ard-arası kəsilmir. Yola salmaq üzrə olduğumuz həftə onların daha bir qanunsuz addımı ortaya çıxıb.***

Belə ki, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) çoxmənzilli yaşayış komplekslərində (MTK) internet xidmətlərinin göstərilməsi və rəqabət mühitinin gücləndirilməsi mövzusunda telekommunikasiya operatoru və provayderləri ilə keçirilən görüşdə bildirilib ki, çoxmənzilli binalarda ən azı 3 fərqli provayderin xidmət göstərməsi abonentlərin seçim hüququnun təmin edilməsi və rəqabətin formalaşması baxımından zəruridir. Lakin bəzi MTK-larda yalnız bir internet provayderinin istifadəsinə icazə verilir. Bəs bu nə dərəcədə qanunidir?



Məsələ ilə bağlı milli.az-a açıqlama verən informasiya texnologiyaları üzrə ekspert Elvin Abbasov bildirib ki, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) çoxmənzilli binalarda ən azı 3 provayderin xidmət göstərməsini tələb etməsi, ilk növbədə, Azərbaycan Respublikasının İstehlakçıların Hüquqlarının Müdafiəsi haqqında Qanununa və Rəqabət Məcəlləsinin prinsiplərinə əsaslanır.

Onun sözlərinə görə, MTK-ların qəsdən yalnız bir provayderə icazə verməsi vətəndaşların seçim hüququnu birbaşa məhdudlaşdırır və bazarda süni inhisarçı mühit yaradır.

Ekspert daha sonra qeyd edib ki, bu məhdudiyyət qanuni deyil, çünki ədalətli rəqabəti boğur, provayderlərin bazara sərbəst çıxışını əngəlləyir və abonentləri məhdud qiymət, keyfiyyət və texnologiya şərtləri ilə razılaşmağa məcbur edir: "Beləliklə, MTK-nın qoyduğu bu məhdudiyyət qanunvericiliyin fundamental prinsiplərinə ziddir və hüquqi mübahisə predmeti ola bilər".

İKTA-nın "ən azı 3 provayder" tələbinin rəqəmsal infrastruktura çıxışın keyfiyyətini və əlçatanlığını artırmaq məqsədi daşıyan doğru strategiya olduğunu vurğulayan ekspert əlavə edib ki, üç provayderin mövcudluğu həm keyfiyyəti artırır, həm də qiymət rəqabətini təmin edir: "MTK-lar tərəfindən tətbiq edilən maneələr (məsələn, qeyri-rəsmi gəlir əldə etmək üçün inzibati təzyiqlər) həmin binanın sakinlərinə qarşı yönəlmiş qeyri-münasib hərəkət hesab edilməlidir. Abonentlərin seçim hüququnun təmin edilməsi üçün Agentlik tərəfindən rəsmi müdaxilə mexanizminin gücləndirilməsi və MTK-ların bu sahədəki məsuliyyətinin qanunvericiliklə daha dəqiq tənzimlənməsi zəruridir".

Mütəxəssis rəylərindən o da məlum olur ki, ortada faktiki olaraq gizli maraqlar və yenə də... inhisarçılıq təşəbbüsü var! Məsələ orasındadır ki, MTK-ların ikinci və üçüncü internet provayderlərinin binada iştirakına maneə törətməsinin əsas səbəbi, adətən, maliyyə maraqları və inzibati nəzarəti əldən verməmək istəyindən doğur. Belə MTK-lar çox vaxt binaya ilk daxil olan provayderlə qeyri-rəsmi sövdələşmə və ya əməkdaşlıq çərçivəsində fəaliyyət göstərirlər. Bu münasibət ilk provayderə inhisarçı mövqe verir və MTK rəhbərliyini provayderdən "kirayə haqqı", yaxud "xidmətə görə ödəniş" adı altında qeyri-rəsmi gəlir əldə etməyə təşviq edir.

"Yeni provayderin gəlməsi bu qeyri-rəsmi inhisarçılığı pozur və rəhbərliyin əlavə gəlirlərinin azalmasına səbəb olur. Nəticədə, İKTA-nın vurğuladığı kimi, MTK-lar razılıq əldə edildikdən sonra belə, əsassız maneələr (kabelləşmə üçün icazə verməmək, giriş haqqını hədsiz artırmaq) törətməklə və ya süni çətinliklər yaratmaqla inhisarçılığı qorumağa çalışırlar" - E.Abbasov başqa bir açıqlamasında ("Bizim media") deyib.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, sözügedən problemin həlli istiqamətində İKTA-da internet telekommunikasiya xidməti göstərən operator və provayderlərlə əvvəllər də görüşlər keçirilib. Lakin indiyədək aparılan danışıqlar, müzakirələr real nəticə verməyib.

Əldə etdiyimiz məlumata görə, yeni tikilən binalarda, xüsusilə ETTH tətbiq edilən layihələrdə bəzi tikinti şirkətləri blok daxilində mənzillərə yalnız dörd lifli "Ethernet" kabelləri çəkirlər. Bu isə provayderlər üçün texniki məhdudiyyət yaradır və 100 Mbit/s üzərində sürətin təmin olunmasına imkan vermir. Halbuki 300, 500 və ya 1000 Mbit/s kimi yüksək sürətlər üçün ən azı səkkiz lifli "Ethernet" kabellərin istifadəsi tələb olunur. Bununla bağlı da bir neçə dəfə görüş keçirilib, ancaq həmin məsələ də öz həllini tapmayıb.

Nə vaxtsa həllini tapacaqmı? Onu zaman göstərəcək, lakin bir həqiqət dəyişməz olaraq qalır: MTK-lar daha çox qazanc üçün qanunun tələblərini pozmaqdan çəkinməməkdə davam edirlər, yeni tikilən binalarda yaşayanların isə hər gün qarşılarına az qala yeni bir əngəl çıxır. Sadəcə ona görə ki, tikinti oliqarxlarının, MTK sahiblərinin cibi dolsun!

Bu cib isə belə görünür, o qədər dərindir ki, heç vaxt dolmayacaq...

***Sənan Mirzə***

## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda GPON ilə internetin sürəti və əhatə dairəsi genişlənir




***Azərbaycan son illərdə rəqəmsal inkişaf istiqamətində böyük addımlar atır.İnternetin həyatımızın ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə ölkənin telekommunikasiya sahəsində əsas yeniliklərdən biri fiber-optik (GPON) texnologiyasının geniş tətbiqidir. Bu texnologiya yüksək sürət, sabit bağlantı və daha keyfiyyətli internet deməkdir. Xüsusilə "Online Azerbaijan" kimi layihələrin həyata keçirilməsi nəticəsində həm şəhərlərdə, həm də regionlarda minlərlə ev və müəssisə fiber-optik şəbəkəyə qoşulub. GPON-un ölkədə necə yayıldığı və İKT sektorunun inkişafına hansı təsirləri göstərdiyi isə müasir rəqəmsal transformasiyanın ən diqqətçəkən mövzularından biridir.***

"Unikal" qəzeti ölkə ərazisində internetin əlçatanlığı və keyfiyyətin artması üçün tətbiq edilən GPON texnologiyasının əhatəliliyini araşdırıb.

İnformasiya və Kommunikasiya Texnologiyaları Agentliyindən (İKTA) "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, ölkədə sabit genişzolaqlı internet abunəçilərinin sayı 2.2 milyondan çoxdur və bunlardan təxminən 1.7 milyon (yəni 78 %) GPON texnologiyası üzərindən xidmət alır. Bu isə göstərir ki, köhnə ADSL, Ethernet (ETTH) və sabit simsiz (FWA) texnologiyalarına nisbətdə GPON artıq dominant texnologiyaya çevrilib.

Bir neçə il öncə - 2022-ci ildə isə GPON üzərindən internetə qoşulan ev təsərrüfatlarının sayı cəmi 649 min idi.

Qurumdan verilən məlumata görə, paytaxt Bakıda fiber-GPON şəbəkənin genişləndirilməsi xüsusilə sürətli gedib. Paytaxtda ev və biznes subyektlərinin 86.5 %-i GPON-a qoşula biləcək halda olub.

Son illər GPON-un regionlara da yayılması müşahidə olunub. Məsələn, bəzi kənd və rayonlarda belə optik kabelləşmə aparılması barədə məlumatlar var.

44 günlük müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə də GPON texnologiyası ilə yüksək sürətli internet təminatı həyata keçirilir.Bu da həmin bölgələrin bərpası və sosial-iqtisadi reinteqrasiyası baxımından önəmlidir.

Beləliklə, GPON 2017-ci ildən başlıyıb, 2021-ci ildən etibarən daha geniş miqyasda tətbiq olunub və 2025-ci ilə qədər onun əhatəsi ölkənin böyük hissəsinə yayılıb.

"Online Azerbaijan" layihəsi ölkədə sabit genişzolaqlı internetin, əsasən də GPON texnologiyası ilə bütün əraziləri əhatə etməsini təmin etmək məqsədi daşıyır.

Layihə çərçivəsində hədəf qoyulmuşdu ki, 2024-cü ilin sonuna qədər ölkənin demək olar bütün regionlarında minimum 25 Mbit/s sürətli internet təmin olunsun.

Layihənin uğuru sayəsində ev və biznes subyektlərinin sayına görə genişzolaqlı internetin yayılması dəfələrlə artıb.

Bu göstəricilər göstərir ki, GPON əsasında internetləşdirmə yalnız paytaxtda yox, regionlarda və kəndlərdə də genişlənir. Bu isə ölkənin rəqəmsal inkişaf strategiyasının tərkib hissəsidir.

GPON texnologiyasının ölkə üzrə geniş yayılması və genişzolaqlı internet xidmətlərinin kütləviləşməsi bir çox sahədə müsbət təsirlər doğurur. Belə ki,

sabit və yüksək sürətli internet sayəsində onlayn təhsil, elektron xidmətlər, uzaqdan iş və rəqəmsal idarətmə əməliyyatları daha əlçatan olur. Bu, xüsusən regionlarda rəqəmsal boşluğu (digital divide) azaltmağa kömək edir.

GPON-nun yüksək sürət və sabitlik təmin etməsi, simsiz və ADSL-ə nisbətən internet keyfiyyətini artırır.

Məlumata görə, sabit genişzolaqlı internetin orta sürəti ölkədə əhəmiyyətli dərəcədə artıb. 2025-ci ilə doğru ortalama sürət 76.87 Mbit/s-ə çatıb ki, bu da əvvəlcədən qoyulmuş 50 Mbit/s hədəfini aşır.

GPON infrastrukturu həm yüksək sürətli internet, həm "internet + telekom + televiziya" kimi paket xidmətləri təmin etməyə imkan verir. Bu da telekommunikasiya xidmətlərində modernləşməyə, rəqabətin artmasına və xidmət keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

Regionlarda və kəndlərdə GPON çəkilişi, həm kənd əhalisinin, həm də təhsildə, kənd təsərrüfatında, kiçik biznesdə fəaliyyət göstərən insanların daha asan rəqəmsal xidmətlərə çıxışını mümkün edir.

Beləliklə, GPON yalnız internet sürətini artırmır, həm də cəmiyyətdə rəqəmsallaşmanı genişləndirir, İKT-nin təməlini möhkəmləndirir və sosial-iqtisadi inkişaf üçün zəmin yaradır.

GPON artıq ölkənin böyük hissəsində real internet infrastrukturu kimi qəbul olunur - 78 %-dən çox sabit abunəçi GPON-dur.

Layihələr çərçivəsində kəndlərə qədər fiber-şəbəkə aparılması planı və icrası var. Bu, da regional bərabərliyi artırır.

Mütəxəssislər də GPON texnologiyası ilə internetin keyfiyyətinin üstün olduğunu və dayanıqlığını təsdiqləyir.

"Azeurotel"in mütəxəssisi bildirir ki, GPON texnologiyada internet daim stabil olur.

Hava, məsafə və ya kabellərdəki nasazlıqlar sürətə demək olar ki, təsir etmir. Online oyunlar və videozənglər problemsiz işləyir. Fiber-optik kabeldə siqnal uzaq məsafədə belə zəifləmədiyi üçün bağlantı keyfiyyəti dəyişmir.Həmçinin eyni xəttlə bir neçə xidmət işləyir. Fiber kabelləri kəsmək və ya siqnala müdaxilə etmək çox çətindir. Fiber kabellər paslanmır, yanmır və mis kabellərə nisbətən daha davamlıdır. Həmçinin təmir və servis xərcləri daha aşağı olur.

Çünki xətdə çox az aktiv avadanlıq var və nasazlıq riski azdır. Daimi sürət, sabitlik və təhlükəsizlik lazım olan biznes mühitində çox sərfəlidir.

Bütün bunlardan əlavə, GPON - da fiber şəbəkəsi daha az elektrik tələb edir ki, bu da həm maddi baxımdan sərfəlidir, həm də ekoloji cəhətdən uyğundur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Xəzər Boru Kəməri Konsorsiumuna dəyən ziyan açıqlandı

***Ukrayna Silahlı Qüvvələrinə məxsus pilotsuz təyyarənin Xəzər Boru Kəməri Konsorsiumunun (CPC) infrastrukturuna hücumundan sonra Qazaxıstanın neft hasilatı itkisi 480 min ton təşkil edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir, bu barədə respublikanın energetika naziri Yerlan Akkenjenov bildirib.

Onun sözlərinə görə, hücum 2025-ci ilə planlaşdırılan istehsal planının yerinə yetirilməsinə mane olmayacaq.

Akkenjenov əlavə edib ki, CPC-nin tək nöqtəli yanalma dayağı (SPM) PUA-nın hücumu nəticəsində zədələnib. Nazir dəymiş ziyanı əhəmiyyətli adlandırıb və onun bərpası ehtimalını qiymətləndirməyə çağırıb.

Bundan əvvəl Qazaxıstan neft ixracının bir hissəsinin CPC sistemindən Samaraya, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinə və qismən də Çinə istiqamətini dəyişməyə razılıq vermişdi.

Xatırladaq ki, noyabrın 29-na keçən gecə Ukraynanın pilotsuz katerləri Xəzər Boru Kəməri Konsorsiumunun (CPC) Novorossiyskdəki dəniz terminalına hücum edərək terminalın yanalma hissəsini zədələyib. Şirkətin məlumatına görə, partlayışdan sonra Novorossiysk limanının kapitanı bütün yükləmə əməliyyatlarını dayandırıb, tankerlər isə sudan çıxarılıb. İşçilər və podratçılar arasında xəsarət alan olmayıb.

***Gülayə Mecid***

# "Biletim.az" portalı üzərindən onlayn bilet satışı 1.8 dəfə artıb




***Bu ilin yanvar-noyabr aylarında "biletim.az" portalı vasitəsilə onlayn qaydada 739 433 bilet əldə edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.8 dəfə artıb.***

"Unikal" bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə istinadən xəbər verir. Bildirilib ki, onlayn bilet alışının ümumi bilet satışında xüsusi çəkisi 11 ayın nəticəsi üzrə 29,2%, o cümlədən noyabr ayında 38,1% təşkil edib.

2024-cü ilin 11 ayı ərzində qabaqcadan satış üzrə biletlərin xüsusi çəkisi 21.3 % idisə, cari ilin müvafiq dövründə bu rəqəm 37.3 %-ə yüksəlib.

Bu artım sərnişinlərin avtovağzal xidmətlərinə etimadının artdığını və səfərlərini planlaşdırarkən onlayn bilet alışı imkanlarından daha fəal şəkildə istifadə etdiklərini göstərir.

Qeyd edək ki, "biletim.az" portalında 56 məntəqə, 86 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 347 reys olmaqla 395 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

Qeyd edilib ki, vətəndaşlara daha rahat və təhlükəsiz qaydada mənzil başına çatmaq üçün biletləri onlayn qaydada "biletim.az" portalı vasitəsilə əldə etmələri tövsiyə olunur.

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:51 PM Page 13



# Rəşad Nəbiyev ABŞ-da daha bir görüş keçirdi



***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ABŞ-yə səfər çərçivəsində "Brookfield" şirkətinin icraçı direktoru Bruce Flatt ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, görüş zamanı data mərkəzləri, süni intellekt, nəqliyyat infrastrukturunun modernləşdirilməsi sahəsində birgə investisiya imkanları barədə fikir mübadiləsi aparılıb.

# Ucarda Bələdiyyə büdcəsi statistikası




***2025-ci ilin yanvar-sentyabr aylarında bələdiyyə büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,2 faiz artaraq 239,4 min manat təşkil etmişdir.***

Bu dövrdə büdcədən 208,2 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,5 faiz az vəsait xərclənmişdir.

Daxilolmaların 27,9 faizi torpaq vergisi, 15,2 faizi əmlak vergisi, 1,5 faizi bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən, 28,1 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən, 0,2 faizi avtomobillərin dayanacaqları üçün ödənişlər, 26,3 faizi dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar 0,8 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilmişdir.

Büdcə vəsaitlərinin 82,6 faizi yerli özünü idarəetmə orqanlarının, 2,7 faizi sosial müdafiə və sosial təminat, 1,4 faizi nəqliyyat və rabitə, 1,3 faizi mənzil kommunal təsərrüfatı, 12,0 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

*Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi*
*Cəlil Vəliməmmədov*

# Kənd təsərrüfatı ilə bağlı statistik göstəricilər

***2025-ci ilin məhsulu üçün əkilmiş 13104 hektar cəmi taxıl sahəsindən 36250 ton məhsul toplanmış və hər hektardan məhsuldarlıq 27,7 sentner olmuş, o cümlədən 4232 hektar buğda sahəsindən 11764 ton məhsul toplanmış hər hektardan məhsuldarlıq 27,8 sentner, 8872 hektar arpa sahəsindən 24485 ton məhsul toplanmış və hər hektardan məhsuldarlıq 27,6 sentner olmuşdur.***

329 hektar əkilmiş kartof sahəsindən 3941,5 ton məhsul istehsal olunmuş və hər hektardan məhsuldarlıq 119,8 sentner, 1705 hektar tərəvəz sahəsindən 1704 hektarı yığılaraq məhsulu 17354,3 ton olmuş və hər hektardan məhsuldarlıq 101,8 sentner, 185 hektar bostan sahəsindən 3223,3 ton məhsul toplanmış və hər hektardan məhsuldarlıq 174,2 sentner, 603,0 hektar qarğıdalı sahəsindən 3654,8 ton məhsul toplanmış, hər hektardan məhsuldarlıq 60,6 sentner, 1275 hektar çəltik sahəsindən 705 hektarı yığılaraq məhsulu 2693,2 ton olmuş və hər hektardan məhsuldarlıq 38,2 sentner, 9344 hektar yem bitkilərindən 205120,8 ton məhsul götürülərək hər hektardan məhsuldarlıq 219,5 sentner, meyvə bağlarından 17719,1 ton məhsul yığılmış və hektardan məhsuldarlıq 44,7 sentner olmuşdur, giləmeyvələrdən 52,8 ton məhsul götürülərək hər hektardan məhsuldarlıq 17,0 sentner olmuşdur. Çəltik, tərəvəz və meyvə yığımı davam edir.

2025-ci ilin oktyabr ayının 1-i vəziyyətinə 40757 baş iri buynuzlu mal-qara, o cümlədən 26788 baş inək və camış, 45827 baş qoyun və keçi mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 65,7 faizini inək və camışlar təşkil edir.

2025-ci ilin yanvar-sentyabr aylarında diri çəkidə 21038,4 ton ət, 45121,7 ton süd, 28411 min ədəd yumurta, 125,0 ton yun istehsal edilmişdir.

*Ucar Rayon Statistika İdarəsinin rəisi*
*Şakir Qasımov*

# Deputatlar Ankarada Ulu Öndərin anım mərasimində iştirak edirlər

***Ankarada Azərbaycanın Türkiyədəki səfirliyi, Türkiyə Prezident Millət Kitabxanasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilən mərasim və Ulu Öndərin əziz xatirəsində ithaf olunan "Duman çəkiləndə" romanının təqdimatı keçirilib.***



"Unikal" xəbər verir ki, tədbirdə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, qrupun üzvləri deputat Eldar Quliyev və deputat Anar Məmmədov iştirak ediblər. Eyni zamanda, Türkiyə parlamentinin deputatları, diplomatlar, elm xadimləri və ekspertlərin iştirak etdiyi tədbirdə Ümummilli Liderin zəngin, mənalı həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

Rəsmi açılışda Türkiyə Prezident Kitabxanaları Departamentinin sədri Ayhan Tuğlu, Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov, Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun sədri Şamil Ayrım, romanın müəllifi Sabir Şahtaxtı və digər rəsmi şəxslər çıxış ediblər. Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası, dünya şöhrətli siyasətçinin dövlətçilik ideologiyası, Azərbaycan-Türkiyə qardaşlığının inkişafına verdiyi töhfələrdən bəhs olunub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə qəhrəman Azərbaycan Ordusunun qazandığı rəşadətli Qələbəni Türk dünyasının həmrəyliyinə tarixi təsirindən bəhs olunub.

Tədbirdə çıxış edən dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov qeyd etdi ki, "Bu gün biz Türk dünyasının böyük oğlu, dövlət xadimi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ərəfəsində onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Ulu Öndərimiz Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin mürəkkəb sınaqlarından uğurla çıxarmış, güclü, öz sözü olan demokratik, dünyəvi müasir Azərbaycan dövlətini yaratmışdır. Ulu Öndər eyni zamanda, türk dünyasının möhkəmlənmsəində çox incə, strateji və taktik fəaliyyət göstərmiş, bu günkü türk dünyası birliyinin ideoloji əsasını qoymuşdur. Bu gün Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və sıx əməkdaşlıq münasibətləri ən yüksək səviyyədə olmaqla bərabər özünün ən qürurverici anlarını yaşayır. Sözsüz ki, bu münasibətlərdə iki nüfuzlu liderin Cənab Rəcəb Tayyib Ərdoğan və Cənab İlham Əliyevin, o cümlədən xalqlarımız arasında olan dostluq və qardaşlığın təbii birliyi sayəsində mümkün olmuşdur. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

Bu gün Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin himayədarlığı ilə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş yazıçı-publisist Sabir Şahtaxtının müəllifi olduğu "Duman çəkiləndə" romanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun apardığı 44 günlük rəşadətli Vətən müharibəsinin tam təfsilatını tərənnüm edir. Bir sözlə, ibrətamiz məhəbbət dastanı olan bu əsər Böyük Qarabağ Zəfərinin tarixi təntənəsini tərənnüm etmək məqsədilə qələmə alınıb. Bu münasibətlə kitabı ərsəyə gətirənləri təbrik edir, onlara dövlətçilik tariximizin təbliğində uğurlu fəaliyyətinə görə təşəkkür edirəm."

# 6-cı "Yüksəliş" müsabiqəsinə qeydiyyat tarixləri açıqlanacaq

***Yaxın zamanda altıncı "Yüksəliş" müsabiqəsinə qeydiyyat tarixləri açıqlanacaq.***

"Unikal" xəbər verir ki, həmçinin müsabiqənin qeydiyyat prosesi barədə də ictimaiyyətə məlumat veriləcək.

Qeyd edək ki, ötən gün Prezident İlham Əliyev 2026-cı ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Sərəncam imzalayıb. Növbəti "Yüksəliş" müsabiqəsi sayca keçiriləən 6-cı müsabiqə olacaq.

Xatırladaq ki, 2019-2021-ci illərdə keçirilmiş ilk müsabiqədə 27, 2022-ci il ikinci müsabiqədə 22, 2023-cü il üçüncü müsabiqədə 22, 2024-cü il dördüncü müsabiqədə 25 və 2025-ci il beşinci müsabiqədə 20 qalib müəyyən olunub. Beləliklə, ötən beş müsabiqə üzrə ümumilikdə 70 minə yaxın müraciət qəbul edilib, 40 minə yaxın Azərbaycan vətəndaşı prosesdə iştirak etmiş və nəticədə 116 nəfər qalib elan edilib. "Yüksəliş" müsabiqəsi İlham Əliyevin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsis olunub. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manat məbləğində mükafat qazanırlar.

47_27 IYUI-QARA.qxd 12/11/2025 9:21 PM Page 14



# Vətən sevgisinin ölməzlik zirvəsi

***Azərbaycanın qeyrətli oğulları ölümdən qorxmadan özlərini odun-alovun içinə atıb 44 günə 30 il yağıya əsir olan Qarabağımızı azad etdilər. Bununla da qanları bahasına yeni tariximizin qəhrəmanlıq salnaməsi yazan Vətən sevdalılardan biri də 10 noyabr 2000-ci il Biləsuvarın Zəhmətabad kəndində dünyaya göz açan Nicat Höccət oğlu Qasımzadədir. Qısa ömür yolu keçsə də, onu doğma Azərbaycanına fəda etməklə ölümsüzlük qazanıb. 30 il düşmən tapdağına dönən Qarabağımızın xilaskarı, Vətənin ər oğlu olaraq adı xalq tərəfindən böyük qürurla çəkilir, şərəfli həyat yolu nümunə göstərilir.***



20 yaşında polad sinəsini Vətənə sipər edib tarix yazan qəhrəmanımız Nicat Qasımzadə orta təhsilini başa vurub, 2019-cu ildə Vətənin keşiyinə yollanıb. İlk 3 ay Goranboy rayonunda doğma Azərbaycanın hər qarışına olan sevgisini nümunəvi xidməti ilə göstərib. Daha sonra Ağdamda 3 ay artilleriya qoşunlarında üzərinə düşən bütün tapşırıqları layiqincə yerinə yetirib. Cəsurluğu, mərdliyi, igidliyi hesabına tanınan, sevilə Nicata hərbi xidməti dövründə pulemyotçu vəzifəsi verilib, daha sonra manqa komandiri olub. Xidmətinin axırıncı 2 ayını isə kiçik çavuş rütbəsi ilə başa vurub və 6 iyul 2020-ci il tarixində üzüağ, alnıaçıq doğmaların yanına qayıdıb.

Canına məkrli yağı dadanmış Qarabağımıza görə Nicat evdə heç cür rahatlıq tapa bilməyib. Vətən sevdalı qəlbi məhz buna görə də erməni dığalardan qisas almaq istəyi ilə alışıb-yanıb. Azərbaycanın, eləcə dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda könüllü olaraq, birincilər sırasında Vətənin müdafiəsinə qalxıb. Füzuli və Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə odlardan, alovlardan keçərək düşmənin xeyli canlı qüvvəsini məhv edib, bir neçə yaralı dostunu müharibə meydanından çıxardıb. Aldığı yaraları belə unudaraq bir-birindən çətin vuruşlarda hünər göstərib. Erməni dığalarına qan qusdurub, istədiyi qisası alandan sonra Şuşada aldığı qəlpə yarası nəticəsində 9 noyabrda Vətən eşqli ürəyi əbədi dayanıb. 12 noyabr 2020-ci il tarixində doğulduğu Zəhmətabad kənd məzarıstanlığında torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı Vətənə can borcunu şərəflə ödədiyi üçün ölkə rəhbəri İlham Əliyevin Sərəncamları əsasında Nicat Qasımzadə ölümündən sonra "Vətən uğrunda", Xocavəndin, Füzulinin, Şuşanın azadlığına görə, "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Bəli, 30 il əsir Qarabağımızın xilaskarı olaraq tarixin yaddaşına iz qoyan, qısa ömrü Vətənə, torpağına sonsuz məhəbbət mücəssəməsinə dönən Nicat kimi oğlanlar heç vaxt unudulmaz, ürəklərin mehmanı olaraq zaman-zaman gələn nəsillər tərəfində böyük ehtiramla xatırlanar.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Taksi sürücülərinin nəzərinə - İmtahana qeydiyyat başladı

***Dövlət İmtahan Mərkəzi xüsusi hazırlıq keçmiş və şəhadətnamə almaq istəyən taksi minik avtomobili sürücüləri üçün dekabrın 23-də növbəti imtahan keçirəcək. İmtahanda iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə müvafiq qurumlar tərəfindən sürücü olmaq istəyənlərin məlumatları təqdim olunub.***



"Unikal" xəbər verir ki, bu barədə DİM məlumat yayıb. Bildirilib ki, həmin şəxslər 11 dekabr saat 11:00-dan 17 dekabr saat 23:59-dək qeydiyyatdan keçməlidirlər.

İmtahanda iştirak etmək üçün sürücülər ilk növbədə DİM-in internet saytında (https://ekabinet.dim.gov.az/) "Şəxsi kabinet" yaratmalı və göstərilən vaxtadək "Taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığının qiymətləndirilməsi üzrə test imtahanında iştirakı üçün qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçməlidirlər. "Şəxsi kabinet"in yaradılması və hesaba lazımi vəsaitin əlavə olunması qaydaları ilə bağlı təlimatlar yuxarıdakı keçidə yerləşdirilib.

İmtahanda iştirak ödənişlidir. Namizədlər "Şəxsi kabinet" yaratdıqdan sonra həmin kabinetin pul hesabına imtahanda iştirak etmək üçün tələb olunan 35 AZN məbləğində vəsaiti əlavə etməlidirlər. Qeydiyyatdan keçmiş imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

Test imtahanı DİM-in elektron imtahanlar korpusunda (Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov, 50. TÜRKPA-nın yanı) və Gəncə şəhər Vaqif Əliyev adına 12 nömrəli tam orta məktəbdə keçiriləcəkdir. Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni qeydiyyat prosesi başa çatdıqdan sonra, imtahana 3 gün qalmış DİM-in saytından "Elektron imtahanlara buraxılış vərəqələri və nəticələrin çapı" xidməti vasitəsilə çap edə biləcəklər.

İmtahanın davametmə müddəti 1 saatdır. İmtahan zamanı namizədlərə sürücülərin etik davranışı və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş xüsusi hazırlığın proqramını əhatə edən 20 test tapşırığı təqdim ediləcək. Hər tapşırığın düzgün cavabı 1 balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. 10 və daha çox bal toplamış şəxslər imtahanı müvəffəqiyyətlə vermiş sayılırlar və onlara 7 (yeddi) il müddətində etibarlı olan şəhadətnamə təqdim ediləcəkdir.



# Bu il neçə şəxsə əlillik təyin olunub?

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-noyabr ayları ərzində 49 min 400 şəxsə əlillik təyin edilib.***

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, onlardan 22 min 800 şəxsə ilkin, 26 min 600 şəxsə isə təkrar əlillik təyinatı aparılıb.

Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir.

Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

# Goranboy rayon ərazisində payızlıq bitkilərin səpini haqqında statistika

***Rayonda 2026-cı ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini davam etdirilir və cari il dekabr ayının 1-i vəziyyətinə 15741,1 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Səpin aparılmış sahənin 94,6 faizini və yaxud 14888,1 hektarını dən üçün payızlıq bitkilər təşkil etmişdir ki, onun da 4942,3 hektarı buğda, 9945,8 hektarı arpa əkinlərinin payına düşür.***

Ən çox buğda bitkisi Goranboy şəhər, Qızılhacılı qəsəbə, Faxralı və Muzdurlar kənd inzibati ərazi vahidlərində, ən çox arpa bitkisi Borsunlu, Veyisli, Hazır Əhmədli və Faxralı kənd inzibati ərazi vahidlərində səpilmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 0,2 faiz, o cümlədən buğdanın səpin sahəsi 0,2 faiz, arpanın səpin sahəsi isə 0,1 faiz artmışdır.

*Goranboy Rayon Statistika İdarəsi*

# 2025-ci ilin 9 ayında Laçın rayonu üzrə muzdla çalışanların statistikası belə olub

***2025-ci ilin yanvar- oktyabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 7,3 min nəfər olmuş, onlardan 6,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 1,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.***

Muzdla işləyənlərin 5,0 faizi tikinti, 3,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,2 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 53,7 faizi təhsil, 10,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 21,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2025-ci ilin yanvar-oktyabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,3 faiz artaraq 733,6 manat təşkil etmişdir. İqtisadiyyatın emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, tikinti, nəqliyyat və anbar təsərrüfatı, yaşayışın təşkili və ictimai iaşə, maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat və digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

*Laçın Rayon Statistika İdarəsi*

47_27 IYUI-QARA.qxd 12/11/2025 9:55 PM Page 15



## ABŞ Rusiya liderinə təslim olub - KİV



***Ötən həftənin hadisələri göstərdi ki, bütün səylərinə baxmayaraq, Avropa liderlərinin ABŞ prezidenti Donald Tramp üzərində heç bir təsiri yoxdur və Tramp onları amansız tənqid etməyə davam edir.***

"Unikal" xəbər verir ki, bu barədə "Time" jurnalı yazıb.

Məqalə müəllifləri hesab edirlər ki, ABŞ-nin təqdim etdiyi sülh planı Rusiya prezidenti Vladimir Putinə təslim olmaqdır. Bundan başqa, Amerika lideri "Politico"ya müsahibəsində Avropanı Ukrayna məsələsində fəaliyyətsizlikdə ittiham edib.

"Time" yazır ki, Tramp Avropanı danışıqlar prosesindən tamamilə kənarlaşdırıb. Bundan əvvəl Donald Tramp "Politico"ya müsahibəsində bildirmişdi ki, Avropa yalnız Ukraynadan danışır, lakin Moskva ilə Kiyev arasındakı münaqişənin həlli üçün heç bir iş görmür.

***Gülayə Mecid***

## Ukrayna Xəzər dənizində neft yatağını vurdu

***Ukrayna "Lukoil" şirkətinin Xəzər dənizindəki "Filanovski" neft yatağına zərbə endirib.***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" nəşri yazıb.

Məlumata görə, Ukrayna ordusunun "Alfa" Xüsusi Əməliyyat Mərkəzinin uzaqmənzilli pilotsuz təyyarələri platformaya azı 4 dəfə zərbə vuraraq 20-dən çox quyuda hasilatı dayandırıb.Yatağın layihə gücü ildə təqribən 6 milyon ton neft və ya gündə təxminən 120 min bareldir.

***Ağarza Elçinoğlu***

## Putin Ərdoğanla görüşəcək

***Rusiya lideri Vladimir Putin Türkmənistana səfəri zamanı türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan da daxil olmaqla bir sıra ikitərəfli görüşlər keçirəcək.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Aşqabadda bir sıra ikitərəfli görüşlər planlaşdırılır", - Kreml sözçüsü brifinq zamanı bildirib.

***Gülayə Mecid***

## "Bu, Zelenski üçün yaşamaq məsələsidir" - Lavrov

***"Ukrayna münaqişəsinin uzadılması Volodimir Zelenski üçün siyasi sağ qalma məsələsinə çevrilib".***



"Unikal" xəbər verir ki, bu fikri Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

Diplomat vurğulayıb ki, "Ukraynada korrupsiya qalmaqalı başlayıb və bunun fonunda münaqişənin uzanması Zelenski üçün siyasi, hətta bəlkə də fiziki yaşam məsələsinə çevrilib".

O, Krımı, DXR, LPR, Zaporojye və Xerson vilayətlərini Rusiyanın ayrılmaz hissələri adlandırıb.

***Gülayə Mecid***

## Türkiyədə 100-ə yaxın İŞİD üzvü saxlanıldı



***Türkiyənin 22 şəhərində hüquq-mühafizə orqanları İŞİD terror təşkilatının üzvlərinə qarşı əməliyyat keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya məlumat yayıb.

Onun sözlərinə görə, keçirilən əməliyyatda 92 şübhəli saxlanılıb.

# Ermənistan Azərbaycana yaxşı qonşu ola biləcək? - Təhlil



***Azərbaycan günümüzdə istər diplomatik, istərsə də hərbi gücünün çiçəklənən dövrünü yaşayır. Məhz buna görə nəinki qonşu dövlətlər, bütün region bizimlə hesablaşmalı olur.***

Belə bir dövrdə Şimal qonşumuz Rusiya ilə əlaqələr AZAL təyyarəsi hadisəsindən sonra minimuma düşmüşdü.

Diplomatik əlaqələr qismən yumşalsa da, rəsmi Bakı suallarına Moskvadan cavab alsa da gərginlik hələ də davam etməkdədir. Lakin onlar daha çox Ukraynada gedən müharibəyə yönəlib. Kreml bu savaşdan maksimum üstünlüklə çıxmaq istəyir.

Rusiyanın başı qarışmışkən, illərdir bizimlə düşmənçilik edən Ermənistan qismən doğru addımlar atmağa başlayıb. Belə ki, onlar Azərbaycanla ticarət əlaqələrini tam şəkildə açmağa və şərtsiz Sülh Müqaviləsini imzalamağa hazır olduğunu bildiriblər.

Dünən ləğv olunmuş separatçı rejimin "Qarabağ məsələsi həll olunmayıb" adlı müşavirə keçirməsindən sonra, Baş nazir Nikol Paşinyan buna sərt reaksiya verib:

"Mən görürəm ki, "Qarabağ məsələsi həll olunmayıb" adlı müşavirə keçiriblər. Ermənistanda hansısa müzakirə gedir, azərbaycanlılar bunu görür və nəticə çıxarırlar. Qarabağ məsələsinin həll olunmadığını açıqlayanlar deyirlər ki, yeni müharibə lazımdır. Biz Qarabağ uğrunda hər yola getmişik. Amma o yolda gözümüz açılıb. Anlamadığımız çox şeyi başa düşdük. Qarabağ məsələsi, Ermənistan və Azərbaycan məsələsi, eləcə də region məsələsi həll olunub".

Paşinyanın Almaniyada bu sözləri deyib, Moskvaya getməsinin ardından Ermənistan hüquq-mühafizə orqanlarının əməkdaşları separatçı rejimin İrəvandakı "nümayəndəliyi"nin binasında axtarışlara başlayıb. Silahlı qruplaşmanın keçmiş "dövlət naziri" Artak Beqlaryan isə bildirib ki, rəsmi İrəvan bu məsələni kökündən həll etmək istəyir. Belə ki, Beqlaryanın sözlərinə görə, hüquq-mühafizə orqanlarının əməkdaşlarının diqqətində separatçıların sonuncu simvolik lideri Samvel Şahramanyandır. Hazırda onun həbs olunması istisna edilmir.

Onun həbsinin Bakıda qondarma rejimin siyasi-hərbi liderlərinə qarşı başlanmış istintaq prosesinə tam uyğun olduğu şübhəsizdir. Çünki azadlıqda olan separatçı beyin İrəvanda da ikinci dövlət yaratmağa çalışır ki, bu da hamıdan çox Ermənistanın özünə ziyandır.

Paşinyan Qarabağ ermənilərinə tarixi reallığı başa saldığını da bildirib: "Qarabağlı ermənilərimizə demişəm ki, onların qayıdışı real deyil".

O, Azərbaycana paralel şəkildə Qarabağ ermənilərinin qayıdışı və azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı məsələlərini bağlamağı təklif edib: "Mən indi Azərbaycana açıq və ictimai bir təklif vermək istəyirəm. Çünki onların bu mövzularda nə qədər problemləri varsa, bizim də problemlərimiz var. Təklif edirəm ki, bu iki mövzunu paralel bağlamaq üçün birgə yol xəritəsi qəbul edək. Mən də qarabağlılarımıza demişəm ki, onların qayıdışı real deyil. Əgər biz qayıdış gündəmini davam etdirsək, bu o deməkdir ki, Qarabağ hərəkatını yenidən başlayırıq. Qarabağ hərəkatı bitdi, onu başlatmaq cəhdləri də faydasızdır.

İndi mən birbaşa təklif edirəm: gəlin oturaq və bu mövzunu gündəmdən necə çıxara biləcəyimizə dair yol xəritəsi hazırlayaq, çünki bu mövzunun çıxarılması uzunmüddətli strateji mənada istənilən münaqişə vəziyyətini tamamilə aradan qaldırmaq deməkdir".

Ermənistanın baş nazirinin qarabağlı ermənilərin geri qayıtmaları barədə açıqlamasını anlamaq olar. Lakin o unudur ki, Qərbi Azərbaycana qayıdış realdır və ora qayıtmağı gözləyən yüz minlərlə insan var. Və əlbəttə ki, Qarabağı könüllü tərk edən ermənilərlə öz ata-baba yurdlarından qovulan azərbaycanlıların taleyi heç bir şəkildə uzlaşmır. Azərbaycan isə ermənilərin geri qayıtmasına heç bir şəkildə əngəl törətmir...

Bu arada, Azərbaycan neft məhsullarının Ermənistana nəqli üçün danışıqlar da başlayıb. Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi ilk tranzit üçün gömrük rüsumu almayacağını açıqlasa da, sonradan onun tranzit üçün fantastik rəqəm istədiyi məlum olub.

Tbilisinin bu addımına Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili həbsxanadan reaksiya verib. O, bunu İvanişvili rejiminin Ermənistan-Azərbaycan nizamlanmasına mane olması kimi qiymətləndirib: "Məsələ burasındadır ki, Azərbaycan neft məhsullarının Ermənistana müntəzəm tədarükü ilə bağlı tarixi qərar qəbul edib ki, bu da hazırda yalnız Gürcüstan dəmir yolları ilə mümkündür. Elə bir tarif qoyulub ki, bundan birdəfəlik imtina etmək daha yaxşı olardı.

İvanişvilinin heç kimin belə tarifi ödəyə bilməyəcəyini bilməməsi mümkün deyil, ona görə də burada məqsəd Ermənistanla Azərbaycan arasında yaxınlaşma siyasətinə mane olmaqdır. Bilmirəm, onlar Trampın diqqətini cəlb etmək istəyirlər, yoxsa sadəcə Moskvanın gündəliyini yerinə yetirirlər. Hamının gözü qarşısında geosiyasi dram oynanılır".

Qonşuya ümid olan şamsız qalar misalı, Azərbaycan da bundan ehtiyat edərək Ermənistanla dəmir yolunu özü bərpa etmək qərarına gəlib.

Ümumiyyətcə, son zamanlar Gürcüstanın Azərbaycanla qonşuluğa və strateji müttəfiqliyə yaraşmayan addımları artıq qəbuledilməz səviyyəyə çatıb. Onlar bundan əlavə, azərbaycanlı sürücülərə sərhədi keçməkdə maneələr yaradırlar. Sürücülər həftələrlə, bəziləri isə sentyabrdan bu yana sərhədi keçə bilmədiklərini deyirlər.

Bundan əlavə, Gürcüstan Parlamentinin azərbaycanlı deputatı Zaur Dargallının bibisi - Marneuli 4 nömrəli orta məktəbin direktoru Dilara Dargallı vəzifəsindən azad edilib. Həmin ərəfəsə Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev Gürcüstanda səfərdə idi. Belə bir anda azərbaycanlı məktəb direktorunun vəzifədən azad edilməsi də təsadüf hesab edilə bilməz.

İranla isə Məsud Pezeşkianın seçilməsinin ardından müsbət irəliləyiş qeydə alınmaqdadır. Belə ki, Tehrandakı səfirliyimizə edilən hücumun günahkarı nəhayət layiqli cəzasını aldı, bundan sonra Təbrizə birbaşa səfərlər açıldı, İran lideri Bakıya və Qarabağa səfər etdi. Hazırda isə qismən durğunluq dövrüdür.

Beləliklə, hazırda Bakı ilə sürətlə müsbətə doğru irəliləməkdə olan münasibətlərə İrəvan rəhbərlik edir ki, bu da postmüharibə dönəmində sıfırdan qurulan diplomatik əlaqələr üçün normal hesab edilməlidir. Lakin bu temp davam edərsə, əlaqələrimizin ən yaxşı səviyyədə olduğu qonşumuz Ermənistan olacaq.

***Ağarza Elçinoğlu***

47_27 IYUl-QARA.qxd 12/11/2025 9:21 PM Page 16



# "Qarabağ" klubu dünya reytinqində üç pillə geriləди

***"Qarabağ" klubu dünya reytinqində üç pillə geriləyib.***

"Unikal"ın məlumatına görə, bu, Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) açıqladığı siyahıda əksini tapıb.

187,5 xalı olan Azərbaycan çempionu 68-ci yerdə 65-ci sıraya düşüb.



"Sabah" (87,25 xal) 276-cı mövqedən 252-yə, "Zirə" (70,5 xal) 387-dən 360-a qalxıb.

"Araz-Naxçıvan" 390-cı pillədən (57,75 xal) 486-cı yerədək geriləyib.

Qeyd edək ki, 502 klubun yer aldığı siyahıda Fransa təmsilçisi PSJ 585 xalla liderdir.

# Haaland unikal rekorda imza atıb

***"Mançester Siti"nin norveçli hücumçusu Erlinq Haaland Çempionlar Liqasının qrup mərhələsinin 6-cı turunda "Real Madrid"lə oyun zamanı unikal rekorda imza atıb.***

"Unikal" xəbər verir ki, 24 yaşlı futbolçu 43-cü dəqiqədə penalti zərbəsini mükəmməl şəkildə yerinə yetirərək "Siti"yə qələbə qazandıran qolu vurub. Hücumçu karyerasında Çempionlar Liqasında 50-ci start heyətində meydana çıxıb və 51 qol vurub. Məlumata görə, heç kim start heyətindəki ilk 50 oyununda bu qədər qol vurmayıb.

Haaland 2022-ci ilin yayından "Siti"də çıxış edir. Ümumilikdə, futbolçu Qvardiolanın komandasında bütün yarışlarda 167 oyunda 145 qol vurub.

Qeyd edək ki, dünənki matç "Real Madrid"in 2:1 hesablı məğlubiyyəti ilə başa çatıb.

***Ağarza Elçinoğlu***



# Azərbaycanın üç boksçusu dünya çempionatının yarımfinalında

***Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində boks üzrə dünya çempionatında 1/4 final mərhələsinin döyüşləri keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan millisinin 3 idmançısı mərhələni qələbə ilə başa vurub.

Sübhan Mamedov (48 kq) Şodiyorjon Melikuzyevdən (Özbəkistan) güclü olub. Avropa çempionumuz rəqibini 5:0 (30:27, 29:28, 29:28, 29:28, 30:27) hesabı ilə məğlub edib. O, yarımfinalda Sahil Alahverdovi (Gürcüstan) ilə döyüşəcək.

Alfonso Dominqes (92 kq) də 1/4



finaldan qalib ayrılıb. Dünya çempionumuz Andrey Zaplitnini (Moldova) mübarizədən kənarlaşdırıb - 5:0 (30:27, 30:26, 30:27, 30:27, 30:27). Dominqes növbəti görüşündə Turabek Xabibullayevlə (Özbəkistan) münasibətinə aydınlıq gətirəcək.

Məhəmməd Abdullayev (+92 kq) isə Dovlet İslamov (Türkmənistan) üzərində qələbə qazanıb - 5:0 (30:27, 30:27, 30:27, 29:28, 30:27). Dünya çempionatının mükafatçısı yarımfinalda David Surovu (Rusiya) sınağa çəkəcək.

Hər 3 boksçu yarımfinala vəsiqə qazanmaqla özü üçün azı bürünc medalı da təmin edib.

Qeyd edək ki, dünya çempionatına dekabrın 13-də yekun vurulacaq.

# "Əvəzetmələrə qarışmasam, yaxşı olar" - Elvin Cəfərquliyev

***"Qarabağ"ın müdafiəçisi Elvin Cəfərquliyev UEFA Çempionlar Liqasının Liqa mərhələsinin 6-cı turunda Bakıda "Ayaks"a 2:4 hesabı ilə uduzduqları oyundan sonra jurnalistlərin suallarını cavablandırıb. QOL.az saytının əməkdaşının da iştirak etdiyi müsahibəni təqdim edirik:***

***- Oyunla bağlı nə deyə bilərsiniz?***

- Çox danışılası bir şey yoxdur. Məğlub olduq. Çox istəyirdik ki, azarkeşlərimizin önündə qələbə qazanaq. Bizim üçün vacib oyun idi. Qazanılacaq 3 xal növbəti mərhələ üçün şanslarımızı artıracaqdı. Matça yaxşı başladıq. Qollarımızı vurduq. Qarşılaşmanın gedişində bəzi dəqiqələrdə üstünlük bizdə idi. Çox yaxşı hücumlar qururduq, topla yaxşı rəftar edirdik. Lakin hücuma çıxanda bəzi səhvlərə yol verirdik. Bu cür matçlarda isə ani səhvlər qapında qolla nəticələnir. Rəqib əks-hücumlarda çox güclü idi. Bunun da qarşılığında iki qol buraxdıq. Son iki topu demirəm. Onsuz da sonda komanda həvəsdən düşmüşdü. Çox istəyirdik qalib gələk. Təəssüf ki, alınmadı. Əlimizdən gələni edəcəyik ki, növbəti 2 matçda maksimum nəticə qazanaq.



***- Sizcə, matçın qırılma anı hansı idi?***

- Rəqibin vurduğu üçüncü qolu deyərdim. Hesabda geri düşəndə çox məyus olduq. Dördüncü qol da elə həmin məyusluğun nəticəsi idi.

***- Əvəzetmələrin matçın gedişinə nə dərəcədə təsiri oldu?***

- Əvəzetmələrə mən qarışmasam, daha yaxşı olar. Çünki bu, məşqçinin qərarıdır. Mən nəsə deyə bilmərəm.

***- Qeyd etdiniz ki, rəqib əkshücumları təhlükəli olurdu. Bunu bilə-bilə hesabda ikinci dəfə önə keçdikdən sonra arxaya çəkilmək olmazdı? Düşünmürsünüz ki, 2:1-də hesabı qorumaq daha doğru variant idi?***

- O dəqiqələrdə geriyə çəkilsəydik, düzgün olmazdı. Boşluqların olması normaldır. Lakin ani səhvlər olmamalıdır ki, rəqib fərqlənə bilməsin.

***- Qaçırılan qol şansları məğlubiyyətə nə dərəcədə rol oynadı?***

- Əlbəttə, böyük təsiri oldu. Nə qədər epizodlarımız var idi. Təəssüf ki, yararlana bilmədik.

***- Komandada pley-offa ümid qalıb?***

- İtirəcək bir şeyimiz yoxdur. Əlimizdən gələni edəcəyik ki, yaxşı nəticə qazanaq və növbəti mərhələyə adlayaq.

# "Qızlarım 24 yaşınadək oğlanlarla görüşə bilməz"

***NBA-nın canlı əfsanəsi Şakil O'Nil qızları ilə bağlı sərt qaydalarından danışıb.***

Milli.Az-ın məlumatına görə, məşhur basketbolçu "The Big Podcast" proqramında qızlarının 24 yaşına qədər oğlanlarla görüşməsinə icazə vermədiyini bildirib.

O'Nil vurğulayıb ki, qızları ilə maraqlanan şəxslərin ilk növbədə ali təhsilli olmasına diqqət edir: "Qızlar daha ağıllı və düşüncəlidirlər. Onlar əvvəlcə özləri xoşbəxt olmağı bacarmalıdırlar. Qızlarımı bir az daha çox sevirəm. Kişi qadını qorumalı və ona sahib çıxmalıdır".

Şakil O'Nil əlavə edib ki, qızları istədikləri müddətcə ata evində qala bilərlər və onların təhsil xərclərini tam şəkildə özü qarşılayacaq.

Keçmiş idmançı oğlanlarına isə fərqli münasibət göstərdiyini deyib. Onun sözlərinə görə, oğulları 18 yaşa çatdıqdan sonra evdən ayrılmalıdırlar.

# Avropa Liqası: "Fənərbağça" növbəti oyununa çıxacaq

***UEFA Avropa Liqasının əsas mərhələsində VI turun qarşılaşmaları keçiriləcək.***

"Unikal" xəbər verir ki, turnirdə Türkiyəni təmsil edən yeganə komanda olan "Fənərbağça" səfərdə Norveçin "Brann" kollektivi ilə qarşılaşacaq.

"Dinamo Zaqreb" - "Real Betis"
"Utrext" - "Nottinqem Forest"
"Yanq Boyz" - "Lill"
"Niça" - "Braqa"
"Ferençvaroş" - "Reyncers"
"Ştutqart" - "Makkabi Tel-Aviv"
"Şturm Qraç" - "Çrvena Zvezda"
"Ludoqoreç" - "PAOK"
"Midtyulann" - "Qenk"
"Seltik" - "Roma"
"Bazel" - "Aston Villa"
"Portu" - "Malmö"
"Brann" - "Fənərbağça"
"FCSB" - "Feyennord"
"Lion" - "Qou Ehed İqlz"
"Selta" - "Bolonya"
"Frayburq" - "Zalsburq"
"Panatinaykos" - "Viktoriya Plzen"

# 21-ci əsrin ən yaxşı boksçuları - SİYAHI

***"The Ring" 21-ci əsrin ən yaxşı boksçularının siyahısını açıqlayıb.***

"Unikal" xəbər verir ki, peşəkar boks üzrə 5 çəki dərəcəsində keçmiş dünya çempionu, amerikalı Floyd Mayweather XXI əsrin ən yaxşı boksçuları siyahısında birinci olub.

Reytinq məşhur "The Ring" nəşri tərəfindən tərtib edilib.

Siyahının ilk onluğu belədir:

1. Floyd Mayweather Jr. (ABŞ)
2. Manny Pacquiao (Filippin)
3. Terence Crawford (ABŞ)
4. Aleksandr Usik (Ukrayna)
5. Naoya Inoue (Yaponiya)
6. Roman Gonzalez (Nikaraqua)
7. Bernard Hopkins (ABŞ)
8. Vasyl Lomachenko (Ukrayna)
9. Andre Ward (ABŞ)
10. Saul "Canelo" Alvarez (Meksika)

***Gülayə Mecid***